Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 5 (8028) ÇƏRŞƏNBƏ, 9 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# 69 sərəncam, 329 milyon manat

## Ötən il Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlər hesabına mühüm sosial-iqtisadi layihələr gerçəkliyə çevrilib

**2018-ci il ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında mühüm uğurlu hadisələrlə yadda qaldı. Azərbaycanın iştirakçısı olduğu beynəlxalq layihələr reallaşdı, həm paytaxt Bakıda, həm də regionlarda abadlıq-quruculuq işləri davam etdirildi, mühüm sosial-iqtisadi infrastrukturlar açıldı. Həmçinin Bakı beynəlxalq forum və konfranslara, idman yarışlarına evsahibliyi etdi.**

Dövlət başçısı İlham Əliyev bu uğurların daha da geniş vüsət alması, yeni-yeni sosial-iqtisadi obyektlərin inşası, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün imzaladığı sərəncamlarla Prezidentin Ehtiyat Fondundan kifayət qədər vəsait ayırdı.

### Abadlıq-quruculuq, əsaslı yenidənqurma işləri

Son 16 ildə regionların sosial-iqtisadi inkişafı İlham Əliyevin fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edib. Dövlət proqramlarının icrası nəticəsində şəhər və rayonlarda bir sıra sosialyönümlü infrastruktur layihələri yerinə yetirilib.

Dövlət başçısı verdiyi tapşırıqların icrasının hansı formada yerinə yetirildiyinə şəxsən özü nəzarət edib. Regionlara tez-tez səfər etməklə əhalinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlərlə maraqlanıb, insanlarla birbaşa təmasda olaraq problemlərini dinləyib. Sonra isə mövcud problemlərin aradan qaldırılması üçün Prezidentin Ehtiyat Fondundan vəsait ayrılması üçün sərəncamlar imzalayıb.

2018-ci ildə Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlərin təsnifatına nəzər yetirək.

Dövlət başçısının imzaladığı sərəncamlara əsasən, ötən il Lənkəranda 148 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi üçün 3,66 milyon manat, Mingəçevirdə 60 mənzilin təmiri, Bərdədə, Xaçmazda, Masallıda abadlıq-quruculuq tədbirlərinin davam etdirilməsi, Goranboyda, Naftalanda qəzalı vəziyyətdə olan, Lerikdə, Astarada, Biləsuvarda, Qubada, Şamaxıda, İsmayıllıda, Qax, Şəki, İmişlidə istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Prezidentin Ehtiyat Fondundan bu şəhər və rayonların icra hakimiyyətlərinə 3 milyon manat vəsait ayrılıb. Bakı şəhərinin Binəqədi rayonunda abadlıq-quruculuq tədbirlərinin davam etdirilməsi, o cümlədən Ayna Sultanova adına parkda yenidənqurma işlərinin aparılması məqsədilə 1,5 milyon manat, Xızıda abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün isə 1 milyon manat vəsaitin ayrılması ilə bağlı sərəncam imzalanıb.

Dövlət başçısı Ağdam rayonunun erməni silahlı birləşmələri ilə təmas xəttinə yaxın 19 yaşayış məntəqəsində mülki əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 139 ailənin yaşadığı 121 fərdi yaşayış evinin bərpası üçün Ağdam Rayon İcra Hakimiyyətinə 3 milyon manat vəsaitin ayrılması ilə bağlı sərəncam imzalayıb.

Azərbaycanın iki böyük şəhəri - Gəncə və Sumqayıtda abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün sərəncamlar imzalanıb. Belə ki, Gəncədə yolların əsaslı təmiri və şəhərin küçələrinin işıqlandırılması işlərini həyata keçirmək üçün Gəncə Şəhər İcra Hakimiyyətinə 10 milyon manat, Sumqayıtda çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə isə 5 milyon manat ayrılıb.

Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatında özünəməxsus yer tutan, zəngin mədəniyyəti, qədim tarixi və dövlətçilik ənənələri olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün Prezidentinin Ehtiyat Fondundan muxtar respublikanın Nazirlər Kabinetinə 10 milyon manat ayrılması ilə bağlı sərəncam imzalanıb.

Ardı 2-ci səh.

### Prezidentin Ehtiyat Fondu - regionların inkişafı

*Dövlət başçısı İlham Əliyev hər il olduğu kimi, 2018-ci ildə də regionlarda yeni sosial-iqtisadi obyektlərin inşası, abadlıq-quruculuq işlərinin daha da genişləndirilməsi üçün imzaladığı sərəncamlarla Prezidentdin Ehtiyat Fondundan kifayət qədər vəsaitlər ayırıb:*

- Abadlıq-quruculuq, yenidənqurma - **21** sərəncam, **79,16** milyon manat;
- Yeni təhsil ocaqlarının tikintisi - **13** sərəncam, **17,8** milyon manat;
- Körpü və yeni yolların inşası - **6** sərəncam, **19** milyon manat;
- Aqrar sektoun inkişafı - **6** sərəncam, **13** milyon manat;
- KİV-ə dəstək - **2** sərəncam, **4** milyon manat;
- Sosial infrastruktur - **10** sərəncam, **42,6** milyon manat;
- Enerji təminatı - **5** sərəncam, **140** milyon manat;
- Dini qurum və icmalar - **6** sərəncam, **14,2** milyon manat.

# Balakən rayonunun Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On səkkiz min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,4 milyon (dörd milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 yanvar 2019-cu il*

# Tarixin ən qüdrətli Azərbaycanı

## Yola saldığımız il bizi Qarabağa daha da yaxınlaşdırdı

**Narahat dünyamızda bir çox siyasi, ictimai, iqtisadi, hərbi hadisələrlə, proseslərlə zəngin olmuş 2018-ci il artıq başa çatdı, tarixə qovuşdu.**



Bütün dünyanın qlobal kataklizmlərlə, sarsıntılarla qarşılaşdığı ildə ölkəmiz nəinki sabitliyi, əmin-amanlığı qoruyub saxladı, həyatın bütün sahələrində irəliyə doğru inamlı addımlar ataraq, bir çox uğurlara nail oldu, inkişafının yeni mərhələsinə qədəm qoydu.

Daha bir ili arxada qoyduq, daha bir ilə əlvida deyib, yeni ümidlər, yeni arzularla və yeni-müsbət gözləntilərlə 2019-cu ilə qədəm qoyduq. Artıq bir neçə gündür ki, yeni ilin ilk günlərini yaşayırıq. Bu il də ölkəmiz, xalqımız üçün bir çox mühüm hadisələrin yaşanacağı gözlənilir.

Belə ki, 2011-ci ildən əməkdaşlıq etdiyimiz, üzvü olduğumuz, BMT-dən sonra dünyanın ikinci nüfuzlu beynəlxalq təşkilatı sayılan Qoşulmama Hərəkatının 18-ci Zirvə toplantısı ölkəmizdə keçiriləcək. Azərbaycan bu nüfuzlu qurumun möhtəşəm toplantısına yüksək səviyyədə evsahibliyi etməklə yanaşı, həm də 2019-2022-ci illərdə bu təşkilata sədrlik funksiyasını yerinə yetirəcək. Bu il, həmçinin, qlobal nüfuzlu tədbirlərin keçirildiyi məkana çevrilən Bakıda UNESCO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. Eyni zamanda, bu il, sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan və ilk ali təhsil ocağımız, elm məbədgahımız sayılan Bakı Dövlət Universitetinin təsis olunmasının 100 yaşı tamam olur ki, bu istiqamətdə də yüksəksəviyyəli yubiley tədbirləri keçiriləcək, Azərbaycan təhsilinin və elminin keçdiyi şərəfli yola bir daha nəzər yetiriləcək.

Ardı 3-cü səh.

# Erməni saxtakarlığı, erməni xəyanəti

## Zaman keçdikcə onların iç üzü daha çox açılır

Dünyada erməni xəstəliyi deyilən bir mərəz var. Bunun mayasında ermənilərin özlərinin dünyada ən qədim mədəniyyətə, sivilizasiya və dövlətçilik tarixinə malik olması barədə uydurduqları yalanlar dayanır. Onlar istəklərinə çatmaq üçün hər cür iyrənc üsullara əl atmaqdan da çəkinmirlər.

Xüsusilə tarixdə heç bir dövlətçilik ənənəsi olmayan ermənilər bu məqsədlə özlərini "əzabkeş", qonşu türklər tərəfindən "əzilən", "soyqırımına" məruz qalan xalq kimi göstərirlər. Əsl niyyətləri isə havadarlarının köməyi ilə bu xalqları doğma yerlərindən didərgin salaraq onların torpaqlarına sahib çıxmalarına "tarixi əsas" yaratmaqdır.

Ermənilər məqsədlərinə çatmaq üçün müqəddəs olan din amilindən də istifadə etməkdən çəkinmirlər. Dünyanın vicdanlı elm adamları tərəfindən birmənalı olaraq ermənilərin Qafqaza gəlmə xalq olduğu, burada sivilizasiyanın formalaşmasında heç bir rol oynamadığı sübuta yetirilib. Lakin ermənilər bu məsələdə də saxtakarlığa əl ataraq Qafqazda ilk xristianlığı qəbul edən albanların dini və mədəni abidələrinə sahiblənmək üçün dəridən-qabıqdan çıxırlar. Bununla da bir neçə məkrli niyyətlərinə çatmaq istəyirlər. Birincisi, alban maddi və mənəvi sərvətlərinə yiyə çıxmaqla özlərini bu torpaqların tarixi sahibi kimi təqdim etmək istəyirlər. İkincisi, özlərinin guya xristian dinini ilk qəbul edən xalq olduğunu göstərməklə həm dünya, həm də Qafqaz xristianlığının təşəkkülündəki xidmətlərini qabartmaq istəyirlər. Halbuki nə alban mədəniyyətinin, nə də Qafqazda xristianlığın təşəkkülündə ermənilərin bir rolu olub. Ancaq dünyada xristian təəssübkeşliyi sayəsində ermənilər Azərbaycanın 20 faiz torpağını işğal etməyə müvəffəq olublar. İşğalın bu gün də davam etməsində belə xristian həmrəyliyi mühüm faktor olaraq qalır.

Ardı 3-cü səh.






# 69 sərəncam, 329 milyon manat

## Ötən il Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlər hesabına mühüm sosial-iqtisadi layihələr gerçəkliyə çevrilib

*Əvvəli 1-ci səh.*

### Ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və yenidənqurulması

Son illərdə ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı sayəsində bu sahədə böyük uğurlar əldə olunub. Dövlət başçısının sərəncamlarına əsasən Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlər hesabına regionlarda yeni-yeni məktəb və körpələr evi-uşaq bağçaları tikilib, mövcud təhsil ocaqlarında abadlıq və yenidənqurma işləri aparılıb.

Xızıda 1 nömrəli tam orta məktəbin 420 şagird yerlik yeni binasının tikintisi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Təhsil Nazirliyinə 3,8 milyon manat, Lerikin Orand kəndində 180 şagird yerlik, İmişlinin Qızılkənd kəndində 624 şagird yerlik, Qaxın Əlibəyli kəndində 216 şagird yerlik, Şəkidə 960 şagird yerlik, Ağdamın Birinci Yüzbaşılı kəndində 132 şagird yerlik, İsmayıllının Basqal qəsəbəsində 432 şagird yerlik, Ağcabədinin Salmanbəyli kəndində 432 şagird yerlik, Sumqayıtda 1176 şagird yerlik yeni ümumtəhsil məktəbi binalarının tikintisi məqsədilə Təhsil Nazirliyinə ilkin olaraq hər bir məktəb üçün 1 milyon manat ayrılıb.

Biləsuvarda 1176 şagird yerlik, Lənkəranın isə Şıxakəran kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəblərinin tikintisi üçün ilkin olaraq nazirliyə hər bir rayon üçün 2 milyon manat, İsmayıllıda yeni uşaq bağçasının, Naftalanda isə yeni 200 yerlik körpələr evi-uşaq bağçası binasının tikintisi üçün hər birinin icra hakimiyyətinə 3 milyon manat vəsaitin ayrılması ilə bağlı sərəncam imzalanıb.





### Avtomobil yolları, körpü və tunellər

Azərbaycan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin mərkəzində yerləşdiyi üçün son illərdə avtomobil yolları da yenidən qurulub. Hətta müxtəlif qəsəbə və kəndləri birləşdirən yollarda da yenidənqurma işləri aparılıb. Bir sözlə, ölkəmizdə yol infrastrukturu təzələnib. Dövlət başçısının sərəncamlarına əsasən Prezidentin Ehtiyat Fondundan yolların, körpülərin tikintisi üçün lazım olan vəsaitlər ayrılıb.

Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası üçün 3,5 milyon, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 204-207-ci kilometrlik hissəsinin və Astaraçay çayı üzərində körpünün tikintisi məqsədilə Prezidentin Ehtiyat Fondundan 3 milyon manat ayrılıb.

Bundan başqa, Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması məqsədilə 5 milyon, Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə 3 milyon manat, Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi məqsədilə ilkin olaraq 1,5 milyon, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km)-Biləsuvar avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3 milyon manat ayrılıb.

### Aqrar sektora göstərilən diqqət və qayğı

Son 16 ildə Azərbaycanda aqrar sektor da böyük inkişaf yolu keçib. Ölkədə yaradılan aqro və texnoparklar, əkin sahələrinin suvarılması üçün tikilən su anbarları, su kanalları, fermerlərə dövlət qayğısı sayəsində kənd təsərrüfatında böyük canlanma müşahidə olunur.

Dövlət başçısının sərəncamlarına əsasən Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə "İncəçay", "Cəfərxanlı", "Üçtəpə", "Bəylər" və "Alıcı" su anbarlarında zəruri təmir-bərpa işlərinin aparılması üçün rayon icra hakimiyyətinə 4,5 milyon manat, Masallı rayonunda 3230 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 37 kiçik sututarda zəruri təmir-bərpa işlərinin aparılması üçün Meliorasiya və Su Təsərrüfatı ASC-yə ilkin olaraq 1 milyon manat, Ağdam rayonunun 20 yaşayış məntəqəsində 1050 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 35 subartezian quyusunun layihələndirilməsi və qazılması üçün Meliorasiya və Su Təsərrüfatı ASC-yə 2,5 milyon manat ayrılıb.

Həmçinin Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində yeni yaradılan Aqrar Tədqiqatlar Mərkəzinin nizamnamə fondunun formalaşdırılması üçün 1 milyon manat, elektron kənd təsərrüfatı sisteminin inkişaf etdirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinə ilkin olaraq 2 milyon manat ayrılması barədə fərman və sərəncam imzalanıb.

Digər sərəncama əsasən Astara rayonunda sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirlərinin davam etdirilməsi üçün Meliorasiya və Su Təsərrüfatı ASC-yə ilkin olaraq 2 milyon manat ayrılıb.

### KİV-ə dövlət dəstəyi

Azərbaycan dövləti kütləvi informasiya vasitələrinin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır, bu sahədə meydana çıxan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Dövlət başçısı Azərbaycanda nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında sərəncam imzalayaraq ölkədə nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1 milyon manat ayırıb.

Onu da vurğulayaq ki, son illərdə milli informasiya resurslarının, kommunikasiya vasitələrinin inkişafına yönəlmiş davamlı dövlət siyasəti, xüsusilə "Azerspace-1" peykinin orbitə çıxarılması, bütün ölkə ərazisində rəqəmsal yayıma keçid və görülmüş digər işlər teleradio sahəsində də müasir texnologiyaların tətbiqini sürətləndirib, yayımçıların texniki imkanlarının və operativliyinin artmasına, təsir imkanlarının yüksəlməsinə səbəb olub. Özəl teleradio yayımçılarının ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, xalqın mədəniyyətinin və milli-mənəvi dəyərlərinin təbliği, cəmiyyətin informasiya ehtiyacının ödənilməsi sahəsindəki fəaliyyətinin stimullaşdırılması, Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Milli Televiziya və Radio Şurasına 3 milyon manat ayrılıb.

### Sosial təminat, layihə və infrastrukturlar

Şəhid ailələrinə, qaçqın və məcburi köçkünlərə, veteranlara daim diqqət və qayğı göstərən Azərbaycan Prezidenti mütəmadi olaraq bu kateqoriyaya aid insanların sosial durumunun yaxşılaşdırılması ilə bağlı sərəncamlar imzalayır.

Ötən il İlham Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı sərəncama əsasən ərazi bütövlüyü, müstəqilliyin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Prezidentin Ehtiyat Fondundan 20 milyon manat ayrılıb.

**Bölgələrə böyük dəstək**

Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlərin bir qismi **41** şəhər və rayonda quruculuq-yenidənqurma işlərinin görülməsi, sosial-iaşə obyektlərinin tikilməsi və yeni yolların salınması, körpülərin bərpasına sərf olunub:

- **22** şəhər və rayonda quruculuq, əsaslı yenidənqurma işləri görülüb;
- **13** rayon, qəsəbə və kənddə yeni təhsil ocaqlarının inşasına başlanılıb;
- **6** rayonda yeni yollar salınıb, körpülər tikilib.

Digər sərəncamla isə 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım edilib. Belə ki, İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat məbləğində, müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardımın verilməsi üçün ümumilikdə 5,9 milyon manat vəsait ayrılıb.

Həmçinin Azərbaycanda müharibə veteranlarına dövlət qayğısını artırmaq məqsədilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına 300.000 manat ayrılıb.

Gənclərin təhsil, məşğulluq, innovasiya fəaliyyəti, beynəlxalq əməkdaşlıq, asudə vaxtın səmərəli təşkili, ictimai fəal gənclərin stimullaşdırılması istiqamətində həyata keçirilən layihələrin maliyyələşdirilməsi üçün Gənclər Fonduna 3 milyon manat, Bakı şəhərinin baş planının hazırlanması işinin təşkili üçün nüfuzlu beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 4 milyon manat, "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və sözügedən abidənin ərazisində müasir turizm infrastrukturunun yaradılması məqsədilə Dövlət Turizm Agentliyinə 1,2 milyon manat ayrılıb.





Bununla yanaşı, Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı nüfuzlu beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 1,3 milyon manat, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təşkili, "DOST" mərkəzlərinin yaradılması və vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2 milyon manat vəsaitin ayrılması ilə bağlı sərəncamlar imzalanıb.

Prezidentin daha iki sərəncamına əsasən İsmayıllı rayonunun İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri, zəruri avadanlıq və inventarla təchizatı məqsədilə rayonun icra hakimiyyətinə 2,5 milyon manat, rayonda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizat üçün "Azərxalça" ASC-yə 2,4 milyon manat ayrılıb.

### Enerji təminatı hər zaman prioritet məsələlərdən biridir

Prezident İlham Əliyev ötən ilin iyun ayında "Azərbaycan" İstilik Elektrik Stansiyasında baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması ilə bağlı dərhal təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verib. Eyni zamanda aparılmış araşdırmalar nəticəsində stansiyanın fəaliyyətində aşkar edilmiş nöqsanların aradan qaldırılması və infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında sərəncam imzalayaraq əsaslı təmir-quraşdırma işlərinin görülməsi və zəruri avadanlıqların tədarük edilməsi məqsədilə "Azərenerji" ASC-yə nizamnamə kapitalının artırılması üçün ilkin olaraq 48 milyon manat ayırıb.

Bundan başqa, kiçik və orta elektrik stansiyalarının təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında da qərarlar verilib. Belə ki, Bakı şəhərində və regionlarda infrastrukturların, sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizində mühüm rol oynayan kiçik və orta elektrik stansiyalarının real generasiya gücünün artırılması və sabit fəaliyyətinin təmin edilməsi məqsədilə "Bakı", "Astara" və "Yenikənd" elektrik stansiyalarında təmir-bərpa işlərinin görülməsi, zəruri avadanlıqların tədarük edilməsi məqsədilə "Azərenerji"yə ilkin olaraq 12 milyon manat ayrılması ilə bağlı sərəncam imzalanıb.

Dövlət başçısının digər iki sərəncamına əsasən "Şimal", "Cənub", "Sumqayıt" və "Mingəçevir" elektrik stansiyalarında təmir-bərpa işlərinin görülməsi və zəruri avadanlıqların tədarük edilməsi məqsədilə isə "Azərenerji" ASC-yə nizamnamə kapitalının artırılması üçün ilkin olaraq 30 milyon manat, "Qobu" yarımstansiyası üçün əlaqələndirici elektrik verilişi xəttinin tikintisi, elektrik verilişi xətlərinin və naqillərin yenilənməsi və əsaslı təmiri işlərinin görülməsi məqsədilə 10 milyon manat ayrılıb.

Prezident ilin sonunda energetika sisteminin təkmilləşdirilməsi və elektrik enerjisi təchizatının yaxşılaşdırılması tədbirləri haqqında sərəncam imzalayaraq əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması məqsədilə Energetika Nazirliyi və "Azərenerji" tərəfindən birgə tərtib edilmiş Reabilitasiya Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı "Azərenerji" ASC-yə nizamnamə kapitalının artırılması üçün 40 milyon manat ayırıb.

### İslam dininin təbliği, dini qurumlara dəstək

Şərqlə Qərbin qovuşduğu məkan adlandırılan Azərbaycan həm Avropa İttifaqı ilə əməkdaşlıq edən, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan bir ölkədir. Azərbaycanı İslam mədəniyyətinin paytaxtı da adlandırırlar. Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilməsi, Bakı şəhərində "2017 - İslam həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda mötəbər beynəlxalq konfransın keçirilməsi bunun bariz nümunəsidir.

Dövlət başçısı "İslam həmrəyliyi ili"nin davamı kimi 2018-ci ildə keçirilən əlavə tədbirlərin maddi təminatı üçün Qafqaz Müsəlmanları İdarəsinə 4 milyon manat, digər sərəncama əsasən Qafqaz Müsəlmanları İdarəsinə maliyyə yardımı göstərilməsi üçün 4 milyon manat, dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncama əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 400 min manat, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin xarici ölkələrdə keçirəcəyi tədbirlər üçün 2 milyon manat vəsaitin ayrılması ilə bağlı sərəncam imzalayıb.

Bundan başqa, Təzəpir məscidi kompleksində təmir-bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat ayrılması ilə bağlı sərəncam imzalanıb.

Onu da əlavə edək ki, Azərbaycan xalqı öz təbiətindən gələn dərin insanpərvərlik və xoşməramlılıq duyğusu ilə uzun əsrlərdən bəri bütün digər xalqların dini-mənəvi dəyərlərinə daim ehtiramla yanaşıb. Ölkədə müxtəlif mədəniyyətlərə, dinlərə və dini cərəyanlara mənsub insanların heç bir maneəyə rast gəlmədən qarşılıqlı anlaşma şəraitində azad yaşamaları, eləcə də azsaylı xalqların öz etnik-mədəni dəyərlərini qorumaları və cəmiyyət həyatının istənilən sahəsində fəal iştirak etmələri üçün həmişə geniş imkanlar yaradılıb.

Tolerantlıq səviyyəsinin və multikultural nailiyyətlərinin göstəricisi olub gələcək inkişaf üçün də zəmin təşkil edən hazırkı milli-mədəni rəngarəngliyi Azərbaycanın ümumbəşəri dəyərlər xəzinəsinə misilsiz töhfələrindəndir. Dövlət başçısının digər sərəncamına əsasən isə Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi üçün Prezidentin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100 min manat, Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100 min manat və Alban-Udi Xristian dini icmasına 100 min manat ayrılıb.

Göründüyü kimi, dövlət başçısının ötən il ölkədə bir çox sosial-iaşə obyektlərinin inşası, yenidən qurulması, aztəminatlı ailələrin rifah halının yaxşılaşdırılması, Azərbaycanda və xaricdə beynəlxalq tədbirlərin keçirilməsi, enerji təminatı və digər sahələrin inkişafı üçün 2018-ci ildə imzaladığı 69 sərəncamla Prezidentin Ehtiyat Fondundan ayrılan ümumi məbləğ 329 milyon 760 min manat təşkil edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Tarixin ən qüdrətli Azərbaycanı

## Yola saldığımız il bizi Qarabağa daha da yaxınlaşdırdı

*Əvvəli 1-ci səh.*

Bu il görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi də qeyd olunacaq ki, bununla da bağlı ötən ilin sonlarında Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanıb. İnanırıq ki, dahi şairimizin 650 illik yubileyi də onun adına layiq səviyyədə keçiriləcək.

Dekabr ayında respublikamızda həmçinin növbəti bələdiyyə seçkiləri keçiriləcək ki, bu da 1999-cu ildən bu yana ölkəmizdə reallaşdırılan sayca 5-ci seçkilər olacaq. Azərbaycan bu seçkilərlə demokratik inkişafa doğru daha bir addım atacaq. Çünki demokratiya, demokratik inkişaf bizim öz könüllü seçimimizdir və biz bu istiqamətdə də addım atarkən bunu kimlərinsə diktəsi ilə deyil, özümüzün istəyimiz ilə edirik.

Bu il Azərbaycan daha bir nüfuzlu idman yarışmasına - Avropa Gənclər Olimpiya Festivalına evsahibliyi edəcək. Festival iyul ayının 20-dən 28-dək keçiriləcək. 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslamiadaya uğurla evsahibliyi edən, özünü dünyanın idman ölkəsi kimi tanıdan məmləkətimiz olimpiya festivalını da layiqincə keçirməklə adını bir daha imzalar içində həkk edəcək, yazacaq...

### "Cümhuriyyət ili"

Ötən ilin yanvar ayında Prezidentin sərəncamı ilə 2018-ci il ölkəmizdə "Cümhuriyyət ili" elan olundu. Çünki ötən il şərəf və qürur tariximiz olan Şərqdə ilk demokratik respublika Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi idi.

Düzdür, bu dövlətin ömrü cəmi iki il çəkdi, 1920-ci ilin qara 28 aprel tarixində müstəqiliyimizin daxili və xarici əleyhdarlarının əli ilə Azərbaycan bolşeviklər tərəfindən işğal olundu, başqa dövlətin tərkibinə ilhaq edildi. Bununla belə, 23 aylıq cümhuriyyətimiz çox böyük və şərəfli yol keçdi, Azərbaycanın imzasını imzalar içində elə tanıtdırdı ki, onu yaddaşlardan silib atmaq mümkün olmadı. Və beləliklə də 1991-ci ildə yenidən müstəqilliyini bərpa edən xalqımız 2018-ci ildə AXC-nin 100 illiyini ən yüksək səviyyədə qeyd etdi.

"Cümhuriyyət ili" əsnasında iyun ayının 26-da Azərbaycan Milli Ordusunun yaranmasının 100 illiyi təntənəli şəkildə, möhtəşəm hərbi parad təşkil olunmaqla qeyd edildi. Azərbaycan Ordusunun 100 illiyinə ən böyük töhfə isə Naxçıvanın Günnüt kəndinin erməni işğalından azad edilməsi, Ermənistana 2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, böyük sarsıdıcı zərbə endirilməsi oldu. Belə ki, 1992-ci ildə Ermənistan silahlı birləşmələrinin işğal etdiyi Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər 26 ildən sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən azad edildi. Bu əməliyyat nəticəsində ümumilikdə 11 min hektara yaxın ərazi düşməndən azad olundu. Hərbi paradda çıxışı zamanı Ali Baş Komandan bu tarixi hadisəyə toxunaraq, "Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır" deyə vurğuladı...

Ötən il sentyabr ayının 15-də Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 100 illiyi Azərbaycan və Türkiyə prezidentlərinin birgə iştirakı ilə yüksək səviyyədə qeyd olundu. Həmin gün Bakıda möhtəşəm parad təşkil edilməklə bir daha Azərbaycanın dünyaya nə qədər güclü və qüdrətli dövlət olduğu nümayiş etdirildi, həmçinin Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyi, sarsılmazlığı növbəti dəfə bəyan edildi. Bunu hər iki ölkənin liderləri də öz çıxışlarında dilə gətirdilər...

Sentyabr ayının 21-də isə "Cümhuriyyət İli" çərçivəsində müsəlman-Şərq aləmində ilk dəfə yaradılan parlamentin - AXC Parlamentinin 100 illiyi Milli Məclisin (MM) xüsusi və təntənəli iclası ilə qeyd olundu. Bu tədbirlərdə 50-yə yaxın ölkənin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların parlament nümayəndə heyətləri iştirak etdi.

### Ölkə Prezidentinə növbəti etimad

2018-ci ilin ən yaddaqalan və tarixi hadisələrindən biri də 11 aprel prezident seçkiləridir. Alternativ əsaslarla və demokratik seçki mühitində keçirilən seçkilərdə qədirbilən Azərbaycan xalqı yenə öz müdrik seçimini etdi, ölkə Prezidenti İlham Əliyevə səs verməklə, etimad göstərməklə onu yenidən növbəti 7 il müddətinə rəhbər seçdi. Azərbaycan seçicilərinin tam mütləq əksəriyyəti - 3 milyon 397 min 664 nəfəri, yəni 86,03 faizi İlham Əliyevə səs verdi. Bundan cəmi bir həftə sonra, aprel ayının 18-də dövlət başçısı Milli Məclisdə təşkil edilən andiçmə mərasimi ilə özünün yeni prezidentlik mərhələsinə qədəm qoydu. Mərasimdə çıxışında bir daha ona göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirən dövlət başçısı dedi: *"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və vətənə ləyaqətlə xidmət edəcəyəm".*

Həmçinin prezident seçkilərinin Azərbaycan xalqının iradəsini əks etdirdiyini vurğulayan ölkə rəhbəri *"Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir*" deyə sözlərinə əlavə etdi...

Prezident seçkilərindən və andiçmə mərasimindən çox qısa müddət sonra dövlət başçısı özünün konstitusion səlahiyyətlərindən istifadə edərək hökuməti, Nazirlər Kabinetini buraxdı. Eyni zamanda yeni hökumətin formalaşdırılması istiqamətində addımlar ataraq yeni baş nazirin namizədliyinin təsdiqlənməsi ilə bağlı Milli Məclisə təqdimat göndərdi. Daha sonra yeni hökumətin tərkibi müəyyənləşdirildi.

### "Cənub qaz dəhlizi", TANAP, STAR, Aktau Konvensiyası...

Prezident seçkiləri və hökumətin tam tərkibdə formalaşdırılmasından bir qədər sonra nəinki bölgənin, bütövlükdə Avropanın və dünyanın enerji təhlükəsizliyinin təminatında böyük rol oynayacaq bir sıra uğurlara imza atıldı. Daha doğrusu, AXC-nin 100-cü ildönümünün səhərisi günü, may ayının 29-da Səngəçal terminalında Azərbaycan Prezidentinin iştirakı ilə "Cənub qaz dəhlizi"nin tarixi rəsmi açılış mərasimi keçirildi və bununla da Azərbaycanın dünyanın enerji təhlükəsizliyi təminatında böyük rolu bir daha təsbit olundu.

Bundan cəmi 14 gün sonra, iyun ayının 12-də Türkiyənin Əskişəhər şəhərində bir neçə dövlət başçısının iştirakı ilə "ikinci qan damarı" adlandırılan TANAP-ın rəsmi açılış mərasimi keçirildi. Dövlət başçısı cənab İlham Əliyev mərasimdəki nitqində bunu böyük tarixi hadisə adlandıraraq, *"Türkiyənin gücü bizim gücümüzdür. Bu gün dünyada bir-birini bu qədər dəstəkləyən ölkə tapmaq çətindir. TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının təzahürü, zəfəridir. Biz XXI əsrin enerji tarixini yazırıq. Bu, əməkdaşlıq, sabitlik layihəsidir. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə və Azərbaycan liderlərinin birgə siyasi iradəsi nəticəsində mümkün olub*" deyə bəyan etdi, Azərbaycan-Türkiyə qardaşlığının dönməzliyinə bir daha xüsusi diqqət çəkdi.

Bu tarixi hadisənin üstündən də cəmi iki ay keçəndən sonra, avqust ayının 12-də 1996-cı ildən davam edən 22 illik Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar müsbət sonluqla nəticələndi. Həmin gün, 2018-ci ilin 12 avqust tarixində Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlət başçısının iştirakı ilə tarixi Aktau Konvensiyasına imza atıldı ki, bununla da Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik həll edildi. Qeyd etmək lazımdır ki, Aktau anlaşması məhz Azərbaycan dövlətinin, dövlət başçısının yeritdiyi son dərəcədə təmkinli, səbirli, balanslaşdırılmış siyasət nəticəsində baş tutdu və Azərbaycan bununla daha bir uğuruna imza atdı.

Oktyabr ayının 19-da Azərbaycan-Türkiyə qardaşlığının növbəti nümunəsi olaraq birgə səylərlə reallaşdırılan və nəinki iki ölkənin iqtisadi inkişafına, bütövlükdə regionun inkişafına böyük töhfəsi olacaq "STAR" neft emalı zavodunun açılış mərasimi keçirildi. Mərasimdə hər iki ölkənin liderləri iştirak və çıxış etdi. Azərbaycan Prezidenti bildirdi ki, bu gün Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. *"Biz "Star Rafineri"nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada "Star"ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq*" deyən Azərbaycan Prezidentinin sözlərinə görə, bu, bir daha onu göstərdi ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var və bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

### İqtidar-xalq vəhdəti

Bu yerdə qeyd etmək lazımdır ki, Azərbaycanın 28-ci ilinə qədəm qoyan ikinci müstəqilliyi də asan başa gəlməyib, bir çox ağrılı-acılı hadisələrdən keçib. Bu illər ərzində



Azərbaycanın müstəqilliyini, inkişafını həzm və qəbul edə bilməyən qüvvələr, yeni koordinasiyalı şəkildə fəaliyyət göstərən antiazərbaycançı dairələr ölkəmizin əleyhinə fəaliyyətlərini daim açıq və gizli şəkildə davam etdiriblər. Ötən ilin iyul ayında onlar bu dəfə dini zəmində qarşıdurma yaratmağa cəhd göstərdilər. Gəncədə baş verən hadisələrdə, çox təəssüflər olsun ki, qan da töküldü, yaralananlar, xəsarət alanlar, həlak olanlar da oldu. Ancaq iqtidar-xalq birliyi sayəsində Azərbaycanı yenidən qarışdırmaq istəyən dağıdıcı qüvvələrin niyyətləri baş tutmadı, onlara sarsıdıcı zərbə vuruldu.

Baş vermiş hadisələrlə bağlı hüquq mühafizə orqanlarının iştirakı ilə keçirdiyi 13 iyul müşavirəsində dövlət başçısı bir daha Azərbaycanın daxili və xarici düşmənlərinə kəskin mesajlarını göndərdi. Dövlət başçısı çıxışında qeyd etdi ki, cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. *"Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm: xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz... Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq*" deyə dövlət başçısı vurğuladı.

### Brüssel zəfəri, dünya liderləri ilə bir cərgədə

İyul ayında Prezident İlham Əliyev Belçikaya səfər etdi. Bu səfər siyasi tariximizə "Brüssel zəfəri" kimi düşdü. Həmin səfər zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında yüksək uğura imza atılmaqla yanaşı, Ermənistanın siyasi-diplomatik təcridi istiqamətində böyük qələbə əldə edildi. Birinci uğur tərəfdaşlığın prioritetləri ilə bağlı Avropa İttifaqı və Azərbaycanın münasibətlərini keyfiyyətcə yeni mərhələyə daşıyan sənədin paraflanması oldu. İkinci uğur isə NATO-nun Brüssel Sammitində qəbul edilən yekun kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının xüsusi olaraq qeyd edilməsidir.

Brüsseldə diqqət çəkən məsələlərdən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməni tərəfinin siyasi avantürasına son qoyulması oldu. Məlum olduğu kimi, Ermənistanda ötən il baş verən may hadisələrindən, hakimiyyət dəyişikliyindən, hərbi xunta rejiminin populist Paşinyan iqtidarı ilə əvəzlənməsindən sonra yeni baş nazir tərəfindən avantürist fikirlər səsləndirilir, Dağlıq Qarabağ ermənilərinin danışıqlarda tərəf kimi təmsil olunması kimi məsələlər gündəmə gətirildi.

Ancaq bu mötəbər toplantıda dünya siyasətini müəyyənləşdirən, onun keyfiyyətini, istiqamətlərini təyin edən beynəlxalq təşkilatların mövqeyi bir daha ölkəmizin lehinə oldu. NATO-nun qəbul etdiyi kommunikeni, habelə Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan sənədi buna misal göstərmək olar. Bu, Azərbaycanın Ermənistan üzərində növbəti siyasi-diplomatik qələbəsi, uğuru idi...

Ötən il həmçinin Azərbaycanın dünyanın ən nüfuzlu ölkələri - Rusiya, Böyük Britaniya, Fransa, İtaliya, Almaniya, Belarus və digər dövlətlərlə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri baş verdi. Dövlət başçısının Böyük Britaniyaya, Fransaya və Rusiyaya səfərləri, eləcə də İtaliya və Almaniya liderlərinin Azərbaycana gəlmələri, il ərzində Azərbaycan və Rusiya prezidentlərinin 6 dəfə görüşməsi Azərbaycanın etibarlı tərəfdaş kimi dünyadakı yerini bir daha təsdiqlədi, eyni zamanda Ermənistanın təcridi siyasətində böyük rola malik oldu.

### Elm və təhsilin inkişafında uğurlu mərhələ

2018-ci il eyni zamanda Azərbaycan elminin və təhsilinin inkişafında növbəti uğurlu mərhələ kimi yadda qaldı. Belə ki, ölkə parlamenti tərəfindən təhsilin inkişafına böyük və müsbət təsir göstərəcək bir sıra qanunlar qəbul edildi. Konkret olaraq "Peşə təhsili haqqında" yeni qanun qəbul edildi, "Təhsil haqqında" çərçivə qanununa birdəfəlik və üstə-üstə (parlament tarixində nadir sayılacaq hadisələrdəndir) 64 dəyişiklik olundu və mövcud qanun, demək olar ki, tam yeniləndi. Həmçinin dekabrın 28-də "Ümumi təhsil haqqında" yeni qanun layihəsi birinci oxunuşda qəbul edildi. Bundan başqa, 2019-cu ilin büdcə müzakirələrində deputatların təhsil kreditləri ilə bağlı təkliflərinin bir qismi nəzərə alınaraq 2019-cu ildən ödəniş qəbul planının azaldılması istiqamətində müvafiq addımlar atıldı...

Parlamentdən söz düşmüşkən onu da qeyd etmək istərdim ki, 2018-ci ilin yaz və payız sessiyalarında bütövlükdə 31 iclas keçirildi, 463 qanun qəbul edildi. 2018-ci il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından da məhsuldar oldu. Belə ki, parlamentin nümayəndə heyətləri il ərzində 45 ölkəyə 135-dən çox səfər həyata keçirdi. Deputatlarımız Türkiyədə keçirilən prezident və parlament seçkilərində, Rusiyada, Gürcüstanda və Monteneqroda prezident, Latviyada keçirilən parlament seçkilərində müşahidəçi kimi fəal iştirak etdilər. Həmçinin bu il 85 xarici dövlətin və 27 beynəlxalq təşkilatın 160-dan çox nümayəndə heyəti, ümumiyyətlə, 2050 deputat və əcnəbi vətəndaş parlamentdə oldu. Beynəlxalq təşkilatların xətti ilə 9 tədbir keçirildi...

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi və müxbir üzvlərinin aylıq rütbə maaşlarının artırılması haqqında 17 oktyabr 2018-ci il tarixdə sərəncam imzaladı. Ötən il AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu üçün də yaddaqalan oldu. Belə ki, Azərbaycan və dünya şərqşünaslıq elminə böyük töhfələr vermiş Şərqşünaslıq İnstitutunun 60 illiyi tamam oldu və yubiley tədbiri yüksək səviyyədə keçirildi. İnstitutumuzda böyük alim, akademik Ziya Bünyadovun büstünün açılış mərasimi oldu. Ötən ilin sonlarına yaxın Rusiyanın Şərq Əlyazmaları İnstitutu ilə əməkdaşlıq sazişi imzalandı.

### Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır

2018-ci il əlamətdar hadisələr ilə tarixə döndü. Üstündən illər də keçsə, 2018-ci il yaddaşlardan, hafizələrdən silinməyəcək, hələ çox xatırlanacaq, yad ediləcək. Çünki ölkə Prezidentinin də 31 dekabr tarixində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində qeyd etdiyi kimi, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuş, bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf etmiş, Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləmişdir. Ən əsası isə, ölkə Prezidentinin də qeyd etdiyi kimi, dünyada gərginlik, risklər, təhdidlər artdığı halda Azərbaycan sabitlik məkanı olmuşdur.

Dövlət başçısı *"2018-ci ildə xalqımız əmin-amanlıq, sabitlik şəraitində yaşayıb. Sabitliyin əsas səbəbi və onun mənbəyi xalq-iqtidar birliyidir*" deyərək, bir daha bugünkü Azərbaycanın AXC-nin varisi olduğunu bəyan etdi və inamlı şəkildə vurğuladı ki, Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu, tarixi həqiqətdir. Bu həqiqəti bizlərə yaşadan isə Heydər Əliyev siyasi kursu - İlham Əliyev qətiyyətidir.

**Gövhər BAXŞƏLİYEVA,**
***Milli Məclisin deputatı, akademik***

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib. Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair Bakı Apelyasiya Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 13-nə təyin edilmiş iclasında baxılacaq.

# Erməni saxtakarlığı, erməni xəyanəti

*Əvvəli 1-ci səh.*

Bədnam qonşularımızın iştahası diş altındadır. Onlar işğal etdikləri torpaqlarla kifayətlənmək istəmirlər. Son dövrlər Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu xarici siyasət sayəsində erməni yalanlarının üstü açılır. Bir çox beynəlxalq təşkilatlar Ermənistanı artıq işğalçı dövlət kimi tanıyır. Nə olsun ki?.. Erməni erməniliyindən əl çəkmir. Təzə yalanlar uydurmaq üçün dəridən-qabıqdan çıxır. Özü də, necə deyərlər, ilanı Seyid Əhməd əli ilə tutmaq istəyirlər.

### Erməni saxtakarlığına yönələn istək tərs şillə kimi özünə dəydi

Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynovun rusiyalı tədqiqatçı Oleq Petrenkonun aşkar etdiyi tarixi xəritə və məlumatlara əsaslanaraq Azərbaycan və Ermənistanın tarixi, Qarabağın hansı dövlətə məxsus olması barədə təqdim etdiyi tarixi faktlar ermənilərə tərs şillə kimi dəyib. Belə ki, illərlə qədim Azərbaycan torpağının ermənilərə məxsusluğu barədə uydurulan yalan üzə çıxıb. Görün rus tarixçisi Ermənistanın ondan etdiyi xahiş barədə nə yazır. Ona "böyük Ermənistan"la bağlı tarixi faktları araşdırmağın təklif olunduğunu deyən müəllif bildirir: "Mənə İrəvandan Bakının bir vaxtlar Ermənistana məxsus olmasını araşdırmaqla bağlı təklif gəldi. Qədim xəritələri araşdırarkən Ermənistanın özünün müxtəlif dövlətlərin tərkibində olmasına dair məlumatlara rast gəldim".

Müəllif müxtəlif qədim xəritələri araşdırarkən Ermənistan və Azərbaycanın sərhədlərinə diqqət yetirdikdə heç bir xəritədə Bakı və Qarabağın Ermənistan ərazisində olmasına işarə belə görmür. Əksinə, 1723-cü ilə aid xəritədə İrəvan tamamilə Azərbaycan ərazisi kimi göstərilib. Oleq Petrenko daha sonra yazır ki, ermənilər vikipediyada Azərbaycanın gənc dövlət olduğunu və Gürcüstanla Ermənistan kimi güclü tarixə malik olmadığından bəhs etsələr də, mən Bakı, Qarabağ və hətta Naxçıvanın adının göstərildiyi 1900-cü ilə aid xəritə tapa bildim. Daha sonra müəllif yazır ki, 1900-cü illərdə tərtib olunan xəritədə İrəvan Azərbaycanın ərazisi kimi göstərilir.

### ABŞ admiralı Kolbi Mitçell Çester: "Ermənilər türklərə alçaqcasına xəyanət etdi"

Azərbaycanlı alim, texnika elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar elm xadimi Kamran Rüstəmov amerikalı admiralın 1923-cü ildə "The Nyu York Times" qəzetində dərc olunan məqaləsini üzə çıxarıb. Yazıda ermənilərin bütün dünyaya həyasızcasına sırımaq istədiyi 1915-ci il "erməni soyqırımı" hadisələri zamanı etdikləri xəyanətdən bəhs edilir. Hadisənin şahidi olan müəllif yazır: "Biz ermənilərin Türkiyənin şimal-şərqindən deportasiya olunması barədə çox eşidirik. Faktlar isə belədir ki, öz ölkəsini rusların təhdidlərindən müdafiə etmək məqsədilə türklər ordunu Rusiya ilə sərhədə göndərdilər. Ordu bizim ABŞ-dakı ordumuz kimi bütün millətlərdən olan Türkiyə vətəndaşlarından ibarət idi. Cəbhədə ermənilər patronlarını boş yerə istifadə etmiş və fərarilik edərək kütləvi şəkildə düşmənin tərəfinə keçmişdilər. Lakin bu xəyanətlə də onlar kifayətlənməmişdilər. Ordunun arxa cəbhəsində erməni əhalinin yaşadığı böyük vilayət yerləşirdi və rusların türklər üzərində qələbə qazanmaq üçün əla fürsəti olduğunu hiss edən ermənilər türk ordusunun hərbi təchizat bazası ilə əlaqəsini kəsmək qərarına gəldilər".

Müəllif həmin yazıda erməni xəyanətinin miqyasını amerikalı oxuculara çatdırmaq üçün maraqlı təhlillər apararaq Türkiyə dövlətinin bu xəyanət qarşısında göstərdiyi humanizmi belə təqdim edir: "Gəlin belə bir halı təsəvvürümüzə gətirək. Məsələn, deyək ki, Meksika bizim müharibə vəziyyətində olduğumuz güclü düşmənimizdir və təsəvvür edək ki, biz üstümüzə gələn düşmənin qarşısını almaq üçün ordumuzu Meksika sərhədinə göndərmişik. Daha sonra güman edək ki, ordumuzdakı qaradərililər təkcə düşmənə doğru fərarilik etməklə kifayətlənməmiş, hətta evdə qalanları da mütəşəkkil şəkildə bizim əlaqə xəttimizi kəsmək qərarına gəlmişlər. İndi fikirləşin, bizimkilər, xüsusilə cənublular həmin qaradərililərlə nə edərdi? Bizim qaradərililər ermənilərin türklərə nifrəti ilə müqayisədə bundan on dəfə çox bizə nifrət etmək hüququna malikdirlər. Cənub hissədə qaradərililər çoxluq təşkil etsələr də, onların nümayəndəliyi və qanunların qəbulunda səs vermək hüququ yoxdur. Meyson və Diksondan cənubda yaşayan qaradərililər praktiki olaraq ayrı-seçkiliyə məruz qalmışlar. Halbuki ermənilərin Türkiyədə nümayəndəliyi olmaqla yanaşı, həm də heç bir digər dövlətin vermədiyi xüsusi imtiyazları da var".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Ölkə üzrə pambıq tədarükü 232 min tonu ötüb

Pambıq qəbulu məntəqələrinə ölkə üzrə 232 min 231 ton məhsul təhvil verilib.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur.

Respublika üzrə ən çox pambıq Saatlı (15 min 815 hektar), İmişli (13 min 645 hektar), Sabirabad (13 min 55 hektar), Biləsuvar (12 min hektar), Ağcabədi (10 min hektar), Bərdə (9 min 630 hektar) və Beyləqan (9 min 560 hektar) rayonlarında əkilib. Pambıq əkinlərinin 2/3 hissəsi bu rayonların payına düşür.

Qeyd edək ki, dövlət emal müəssisələrinə təhvil verilmiş pambığın hər kiloqramına görə fermerə 10 qəpik subsidiya verir. Həmçinin pambıq əkən fermerlərin məhsul istehsalına həvəsləndirilməsi və onların maddi rifahının daha da yüksəldilməsi məqsədilə pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2018-ci ilin məhsulu üçün 1-ci növün qiyməti 600-dən 650 manata, 2-ci növün 580-dən 630 manata, 3-cü növün 540-dan 590 manata, 4-cü növün 500-dən 550 manatadək artırılıb.

Prezident İlham Əliyevin 2017-ci il 13 iyul tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda xam pambıq istehsalının 500 min tona çatdırılması nəzərdə tutulur.

AZƏRTAC respublikada pambıq tədarükünə dair yanvarın 8-nə olan operativ məlumatı təqdim edir.

**08.01.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 08 yanvar tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **232231,29** | **207083,07** | **112,1%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 23211,79 | 20428,06 | 113,6% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5807,00 | 6178,41 | 94,0% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3746,83 | 3697,34 | 101,3% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1964,97 | 2761,47 | 71,2% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 21724,22 | 15687,81 | 138,5% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 25334,37 | 22379,85 | 113,2% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 22433,15 | 24762,05 | 90,6% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1387,32 | 1000,35 | 138,7% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 2144,99 | 2126,13 | 100,9% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 9127,78 | 6953 | 131,3% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1170,00 | 974,93 | 120,0% |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 18505,18 | 14564,86 | 127,1% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6666,21 | 4971,37 | 134,1% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 10083,50 | 9052,02 | 111,4% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 30366,22 | 25748,3 | 117,9% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 17194,94 | 18148,76 | 94,7% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 10335,23 | 9271,91 | 111,5% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 922,60 | 46,47 | 19,9 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 8196,50 | 8419,1 | 97,4% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1708,76 | 2315,33 | 73,8% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5278,14 | 3406,86 | 1,5 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4921,59 | 4188,69 | 117,5% |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

# İŞİMİZ VƏ GÜZƏRANIMIZ

**● ÜDM**

## Əlavə dəyər istehsalı artmaqda davam edir

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin yanvar-noyabr aylarında Azərbaycanda 72 milyard 432,1 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur ki, bu da 2017-ci ilin eyni dövründəkindən bir faiz çoxdur.

Sözügedən dövrdə əlavə dəyər istehsalı qeyri-neft sektorunda 1,3, neft sektorunda 0,3 faiz artmışdır. Əhalinin hər nəfərinə isə 7378,5 manat ÜDM düşmüşdür.

11 ay ərzində istehsal olunan ÜDM-in 45,2 faizi sənayedə, 9,3 faizi ticarət və nəqliyyat vasitələrinin təmirində, 6,8 faizi tikintidə, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatında, 5,4 faizi aqrar sektor, meşə təsərrüfatı və balıqçılıqda, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 1,5 faizi informasiya və rabitədə, 15,1 faizi digər sahələrdə formalaşmışdır. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 8 faizini təşkil etmişdir.

Hesabat dövründə əlavə dəyər istehsalı informasiya və rabitədə 9,2, nəqliyyat və anbar təsərrüfatında 7,9, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 7,6, aqrar sektor, meşə təsərrüfatı və balıqçılıqda 4,6, ticarət və nəqliyyat vasitələrinin təmirində 2,7, sənayedə 1,3, digər xidmət sahələrində 0,7 faiz artmış, tikintidə isə 13,1 faiz azalmışdır.

# Köhnə dəniz yatağında yeni özül



**"Bulla-dəniz" yatağında 12 saylı yeni stasionar dəniz özülü istismara verilib. İnşasına 2017-ci ildə başlanmış özül "Neftqazelmitədqiqatlayihə" İnstitutu tərəfindən layihələndirilib, tikinti işləri "Neftqaztikinti" tresti tərəfindən həyata keçirilib. Özül dənizin 30 metr dərinliyində quraşdırılıb və 1 axtarış, 4 istismar quyusunun qazılması üçün nəzərdə tutulub.**

Qazılacaq quyuların orta dərinliyi 6300 metr olacaq. Bu dərinlikdə qazma işləri yüksək təzyiq şəraitində həyata keçirilir və texnoloji cəhətdən mürəkkəb layihə hesab edilir. Lakin yüksək texnoloji standartların tətbiqi sayəsində Azərbaycan neftçiləri analoji quyularda indiyədək uğurlu nəticələr qazanıblar və mövcud təcrübədən indi də istifadə edəcəklər. Burada ümumilikdə gündə 2,5 milyon kubmetr qaz, 500 ton kondensat hasil ediləcəyi gözlənilir.

Qazma işlərini yerinə yetirmək üçün müasir standartlara cavab verən, qazma qülləsinin hündürlüyü 46,6 metr olan qurğu quraşdırılıb. Bu qurğu vasitəsilə rotor səviyyəsindən 7000 metr dərinliyə qədər qazma işləri aparmaq mümkündür. Həm də özüldə qazma işlərinin istismarla eyni zamanda aparılması nəzərdə tutulub. İstismarı N.Nərimanov adına Neft və Qazçıxarma İdarəsi həyata keçirəcək.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə bildirib ki, belə müasir bir dəniz özülünün Azərbaycan neftçilərinin sırf öz imkanları ilə tikməsi və quraşdırması keçmişdə qeyri-mümkün görünürdüsə, bu gün artıq reallıqdır.

Belə ki, yeni özüldə ətraf mühitin mühafizəsi, təhlükəsizlik texnikası, yanğından mühafizə üzrə qabaqlayıcı tədbirlər ən yüksək norma və tələblər səviyyəsində yerinə yetirilib. Qurğunun istehsalat sahəsi 4, yaşayış hissəsi 1 dayaq blokundan ibarətdir. Özüldə vertolyotların enməsi üçün 1, gəmilərin yan alması üçün 4 meydança da quraşdırılıb. Qurğu işçilərin rahat və təhlükəsiz yaşaması üçün 36 nəfərlik yaşayış blokuna malikdir.

Xatırladaq ki, yeni özülün quraşdırıldığı "Bulla-dəniz" strukturu Bakı arxipelaqının şimal hissəsində, "Səngəçal-dəniz-Duvannı-dəniz-Xərə Zirə adası" yatağından cənub-şərqdə, sözügedən yataqdan 10 kilomter məsafədə yerləşir. "Bulla-dəniz" 1957-ci ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilib. Burada dərin kəşfiyyat qazmasına 1965-ci ildə başlanıb. Lakin mürəkkəb geoloji şəraitlə əlaqədar ilk 17 quyunun qazılması başa çatdırılmayıb. Strukturun neftlilik-qazlılığı 1973-cü ildə qazılmış 18 saylı quyu vasitəsilə aşkar edilib.

Qeyd edildiyi kimi, "Bulla-dəniz" yatağında yeni dəniz özülü SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) öz imkanları ilə inşa edilib və istismara verilib. Əvvəllər, yəni müstəqilliyinin bərpasından sonrakı ilk illərdə Azərbaycan belə miqyaslı işləri yalnız xarici şirkətlərin köməyi ilə həyata keçirmək məcburiyyətində idi. İndi isə SOCAR-ın özü yerli neft şirkətindən nəhəng beynəlxalq şirkətə çevrilib. Nəticədə bu gün Azərbaycan digər ölkələrdə də nəhəng sənaye komplekslərini inşa edir, onların xammalla təchizatını davamlı şəkildə həyata keçirir. Ən başlıcası, Azərbaycan xalqının yanacaq və neft-kimya məhsullarına tələbatının tam təmin olunması üçün kəşfiyyat və hasilat kimi ənənəvi sahələr uğurlu fəaliyyətini davam etdirir. Təsadüfi deyil ki, keçən ilin 11 ayında Azərbaycan neftçiləri hasilatın səviyyəsini xeyli artırmağa nail olublar. Müasir texnologiyalar əsasında inşa edilən yeni platformalar, o cümlədən "Bulla-dəniz"də quraşdırılan 12-ci özül də məhz uğurların davamlı olmasının təminatçısıdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

**● DOLANIŞIQ**

## Özəl sektorda çalışanlar daha çox qazanırlar

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycanda həyata keçirilən bütün iqtisadi islahatlar və tədbirlərin məqsədi əhalinin sosial müdafiəsini gücləndirməkdir. Bu siyasət ötən il də davam etmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin 11 ayı ərzində ölkə əhalisinin nominal gəlirləri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz artaraq 47 milyard 368,8 milyon manata çatmışdır. Əhalinin hər nəfərinə isə orta hesabla 4825,3 manat gəlir düşmüşdür. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 43 milyard 433,3 milyon manat (əvvəlki ildəkindən 9,6 faiz çox) vəsait qalmışdır.

Əməkhaqqına gəldikdə, son məlumata (2018-ci ilin yanvar-oktyabr ayları üzrə) əsasən, iqtisadi sektorda muzdla çalışan işçilərin orta aylıq nominal maaşı 2017-ci ilin eyni dövrü ilə müqayisədə 2,8 faiz artaraq 540 manat olmuşdur. Orta aylıq əməkhaqqı neft sektorunda 3014,9, qeyri-neft sektorunda 483,6, dövlət müəssisələrində 429,7, özəl sektorda 688,5 manata çatmışdır.

Onu da qeyd edək ki, mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində isə orta aylıq nominal maaş daha yüksək qeydə alınmışdır.

**● SƏNAYE**

## Qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artmışdır

2018-ci ilin Azərbaycan iqtisadiyyatında yaddaqalan göstəricilərindən biri də ölkə üzrə sənayeləşmənin sürətlənməsi olmuşdur. Bunun Dövlət Statistika Komitəsinin sözügedən sahəyə aid son məlumatı da təsdiqləyir.



Məlumatda bildirilir ki, ötən ilin 11 ayı ərzində Azərbaycanda sənaye sahəsində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 1,4 faiz artaraq 44 milyard manata çatmışdır. Sənayenin qeyri-neft sektorunda 2017-ci ilin eyni dövrü ilə müqayisədə 9,1, neft sektorunda isə 0,3 faiz artım qeydə alınmışdır. Bu dövrdə sənaye məhsullarının 73,4 faizi mədənçıxarma, 21,9 faizi emal, 4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşmüşdür. Sənayedə qeyri-dövlət sektorunun payı isə 82,9 faiz olmuşdur.

11 ay ərzində mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 32,3 milyard manat olmaqla 2017-ci ilin eyni dövrünün göstəricisini 0,2 faiz üstələmişdir. Sahənin əsas məhsulu olan xam neftin əmtəəlik hasilatı 35,4 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 17,4 milyard kubmetr təşkil etmişdir.

Emal sənayesinə gəldikdə, sözügedən dövrdə bu sektorda 9,6 milyard manatlıqdan çox məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

**● SƏRMAYƏ**

## 13 milyard manat investisiya

Başa çatan ötən il də gərgin siyasi və iqtisadi qarşıdurmalarla yadda qaldı. Amerika-Rusiya siyasi gərginliyi, Amerika-Çin iqtisadi çəkişməsi, ticarət müharibələri və qarşılıqlı sanksiyalar dünya iqtisadi inkişafına təsirsiz ötüşmədi. Üstəlik, siyasi ziddiyyətlərdən qaynaqlanan səbəblər üzündən neftin qiyməti də qeyri-sabit olaraq qaldı. Sözsüz ki, belə təlatümlər, güvənsizlik iş dünyasına da mənfi təsir göstərir.

Belə bir şəraitdə bütün ölkələrin daha çox ehtiyac duyduqları isə sərmayə yatırımıdır. Çünki iqtisadiyyatın dinamik inkişafını təmin edən başlıca şərtlərdən biri məhz kapital qoyuluşudur. Və çox diqqətçəkən faktdır ki, məlum səbəblərdən dünyada qarşılıqlı investisiya qoyuluşunda azalma müşahidə edilsə də, ölkəmizdə bu problem yoxdur və yaradılan şəraitə, hökm sürən siyasi sabitliyə görə Azərbaycan iqtisadiyyatı sərmayə yatırımından korluq çəkmir. Çünki ölkəmizdə həyata keçirilən siyasətin bir məqsədi də ölkə iqtisadiyyatının kapitallaşdırılmasının dinamikasını qoruyub saxlamaqdır. Dövlət bu məqsədlə özünün həyata keçirdiyi layihələri maliyyələşdirməklə yanaşı, özəl sektoru da güzəştli kreditlərlə təmin edir. Məqsəd hər iki sahədə aparılan islahatları davam etdirməklə bərabər, qeyri-neft sektorunun davamlı inkişafına nail olmaqdır.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən ilin yanvar-noyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 12 milyard 899,4 milyon manat vəsait yönəldilib. Hesabat dövründə qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 21,2, o cümlədən qeyri-neft sənayesinə qoyulan investisiyalar 22,6 faiz artıb. İstifadə olunan vəsaitin 68,4 faizi məhsul istehsalı sahəsində istifadə edilib.

Həmin dövrdə ümumi sərmayənin 51,8 faizi dövlət, 48,2 faizi qeyri-dövlət sektorlarının sərmayədarları tərəfindən qoyulub. Əsas kapitala yönəldilən vəsaitin 69,9 faizi tikinti-quraşdırma işlərinə sərf olunub. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin həcmi isə ümumi sərmayənin 63,1 faizini təşkil edib.

Əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 6,4 milyard, bank kreditləri 1,6 milyard, büdcə vəsaitləri 3,5 milyard manatdan çox, büdcədənkənar fondların vəsaitləri 254,3 milyon, əhalinin şəxsi vəsaitləri 921,1 milyon, digər vəsaitlər isə 86,3 milyon manat olub.

Yaradılan münbit investisiya mühitə görə bu gün də ölkə iqtisadiyyatına yabançı sərmayə qoyuluşu davam edir. Bunun nəticəsidir ki, ötən ilin yanvar-noyabr aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 4 milyard 754,5 milyon manat vəsait yönəldilib. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən vəsaitin 3 milyard 838,9 milyon manatı İngiltərə, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Rusiya, İran və Çexiya sərmayədarlarına məxsus olub.

Kapital qoyuluşu ölkədə bir sıra yeni sosial, iqtisadi və infrastruktur obyektlərinin tikilib başa çatmasına imkan yaradıb. Belə ki, keçən ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Bakıda Yüksək gərginlikli avadanlıqlar zavodu, 110/35/10 kilovoltluq "Yasamal-1" və "Qobu", 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, Bona Dea Beynəlxalq Hospitalı, "Dinamo" hoteli, respublika Narkoloji Mərkəzi, Abşeron Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Sumqayıt Kimya Sənaye Parkında Polipropilen Zavodu, Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə 2 müəssisəsi və müxtəlif bölgələrdə müxtəlif təyinatlı digər obyektlər istifadəyə verilib.

### Qeyri-neft sektoruna yatırılan sərmayə 21,2 faiz artıb



***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

**● BÜDCƏMİZ**



## ÜDM-in 0,7 faizi həcmində profisit

Maliyyə Nazirliyinin Dövlət Statistika Komitəsinə təqdim etdiyi son operativ məlumata əsasən, ötən ilin yanvar-noyabr ayları üzrə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 20 milyard 144,7 milyon, xərcləri isə 19 milyard 670,1 milyon manat olmuşdur. Büdcənin icrasında yaranmış 474,6 milyon manatlıq profisit ÜDM-in 0,7 faizinə bərabər olmuşdur.

Ötən ilin yanvar-oktyabr ayları üzrə olan məlumata əsasən, büdcəyə daxilolmaların 19,7 faizi əlavə dəyər, 11,9 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergiləri, 5 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,5 faizi fiziki şəxslərin gəlir vergisi, 3,4 faizi aksizlər, 2,1 faizi sadələşdirilmiş vergi, 0,9 faizi əmlak vergisi, 1,3 faizi vergilərin digər növləri, 51,2 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Bu dövrdə büdcə vəsaitlərinin 34,1 faizi iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 16,6 faizi ümumi dövlət xidmətlərinin, 11,6 faizi təhsil və səhiyyənin, 11,2 faizi sosial müdafiə və sosial təminat sahələrinin, 26,5 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

**● TİKİNTİ**

## İnşaat materialları idxalından azad oluruq

Qeyri-neft sektorunun inkişafı istiqamətində görülən tədbirlər nəticəsində Azərbaycan bu gün bir çox tikinti materiallarının idxalından nəinki azad olub, hətta özü belə məhsulların ixracatçısına çevrilib.

Dövlət Statistika Komitəsinin ötən ilin son açıqlamasında bildirilir ki, ölkəmizdə 11 ay ərzində 578,2 milyon manatlıq tikinti materialları istehsal olunmuşdur. Bu, əvvəlki ilin eyni dövrünün göstəricisindən 28,2 faiz çoxdur. Bu dövr ərzində hazır beton qarışığının istehsalı 90,9, sement istehsalı 21,1, kərpic istehsalı 7,4 faiz artmışdır.

Ölkənin xarici ticarət sektoruna aid son məlumata görə, ötən il yanvar-oktyabr aylarında Azərbaycandan ixrac edilən qeyri-neft məhsullarının faktiki qiymətlərlə dəyəri 2017-ci ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz artaraq 1,3 milyard dollarlığı üstələmişdir. Bu artımda isə tikinti materiallarının da xüsusi çəkisi xeyli yüksək olmuşdur.

# REGİONLAR



## Uğurları son həddhesab etmirlər




Unikal təbiəti, zəngin flora və faunası olan Göygöl rayonu 2018-ci ildə də uğurlu göstəricilərlə ölkə iqtisadiyyatına sanballı töhfələr verib. İstər sənayedə, istərsə də kənd təsərrüfatında yüksək nailiyyətlər qazanılıb. Xüsusilə aqrar sahənin inkişafına dövlət dəstəyinin gücləndirilməsi sayəsində davamlı inkişafa hesablanan sosial-iqtisadi layihələr uğurla reallaşdırılıb.

Gəncədən Göygölə cəmi 8 kilometr məsafə var. Rayon mərkəzinə daxil olan hər kəs ilk növbədə vaxtilə burada yaşamış almanların çox zövqlə və səliqə ilə saldıqları küçələrdəki evlərlə rastlaşır. Bir əsr əvvəl alman kolonistləri tərəfindən tikilmiş həmin evlərin hamısı tamamilə bərpa edilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Arif Seyidovla da söhbətimiz bu barədə oldu. Dedi ki, son 15 ildə rayonda çox iş görülüb. Bu dövrü geniş tikinti-quruculuq və abadlıq illəri kimi xarakterizə etmək olar. Ötən illər ərzində alman evləri yenidən qurulmuş, Gəncə çayının sahilində Heydər Əliyev Mərkəzi inşa edilmiş, ulu öndərin adını daşıyan mədəniyyət və istirahət parkında abadlıq işləri görülmüş, mərkəzin qarşısında dahi şəxsiyyətin heykəli ucaldılmışdır. Gənclərin sağlam ruhda böyüməsi və idmana maraqlarını artırmaq üçün Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi tikilmişdir. Bayraq Meydanı və muzeyi, rayon mədəniyyət və folklor evləri, yay kinoteatrı, uşaq yaradıcılıq və texniki yaradıcılıq mərkəzləri, uşaq əyləncə mərkəzi sakinlərin istifadəsinə verilmişdir. Bundan başqa, rayonda 22 yeni məktəb, həmçinin 151 çarpayılıq mərkəzi rayon xəstəxanası üçün yeni bina inşa edilmiş, yol infrastrukturunda çoxsaylı işlər həyata keçirilmiş, kənd yolları yenidən qurulmuş, kənd və qəsəbələrin işıq, qaz, içməli su problemləri demək olar ki, həll edilmişdir.

Ölkə rəhbərinin bu istiqamətdə qarşıya qoyduğu vəzifələrin uğurlu icrası rayon əhalisində məmnunluq yaratmaqla yanaşı, onların qurub-yaratmaq həvəslərini və işgüzarlıqlarını daha da artırmışdır.

Göygöl əsasən kənd təsərrüfatı rayonudur. Torpaq sahələri dəmyə şəraitində əkilib-becərilir. Buna baxmayaraq, torpağın dilini yaxşı bilən sakinlər hər il bol kənd təsərrüfatı məhsulları yetişdirirlər. 2018-ci ildə əkinçilərin göstəriciləri yüksək oldu. 6990,3 hektar sahədə taxıl yetişdirən fermerlər 16457,8 ton məhsul götürdülər. Bu uğurdan ruhlanan taxılçılar ötən ildə əkin sahələrini 7632,2 hektara çatdırıb 19724,3 ton məhsul topladılar. Taxıl sahələrinin hər hektarından orta hesabla 25,8 sentner məhsul əldə edildi. Elə fermerlər oldu ki, göstəriciləri təzələdilər. Məsələn, Suliddin Mahmudov inişilkindən fərqli olaraq ötən il daha çox taxıl əldə etdi. O, 2017-ci ildə 200 hektar sahədən 700 ton, başqa sözlə, hər hektardan orta hesabla 35 sentner taxıl götürmüşdüsə, 2018-ci ildə əkin sahələrini 50 hektar artıraraq daha yaxşı məhsuldarlığa nail oldu. Hər hektarın məhsuldarlığını 40 sentnerə çatdırdı.









Fermer Rəfail Mustafayev də keçənilki məhsuldarlıqdan olduqca razıdır. 143 hektar sahənin orta hesabla hər hektarından 40 sentner məhsul götürdü. Rayon fermerləri 2019-cu ildə də yüksək göstəricilər əldə etmək üçün payızlıq səpini optimal müddətdə başa çatdırmışlar.

Rayonda şəkər çuğundurunun istehsalına da diqqətlə yanaşılır. Keçən il 501 hektar sahədə çuğundur əkən torpaq sahibləri indiyədək 18478 ton məhsul toplamışlar. Məhsuldarlıq da yüksəkdir. Orta hesabla hektardan 368,8 ton çuğundur götürülür.

Bu sahədə zəngin təcrübə toplayan fermerlərdən biri Nadil kəndinin sakini Bəhman Nəcəfovdur. O, 30 hektar sahədən 2010 ton məhsul götürmüşdür. Həmin kəndin digər sakini Sultan Nəcəfov hər hektarın məhsuldarlığını 730 sentnerə çatdırmışdır.

Məlum olduğu kimi, Göygöl tarixən üzümçülük rayonu olub. Sovetlər dövründə burada 160 min ton üzüm istehsal edilmişdi. Məlum səbəblərə görə, sonralar bu rayonda da üzüm bağları məhv edilmiş, yerində müxtəlif bostan bitkiləri əkilmişdi. Son illər dövlət başçısının təşəbbüsü ilə Azərbaycanda üzümçülüyün yenidən inkişaf etdirilməsi üçün verdiyi tapşırıqlara uyğun olaraq rayonda bu gəlirli sahənin inkişafına da diqqət artırılmışdır. Bu məqsədlə xarici ölkələrdən gətirilmiş daha məhsuldar üzüm sortları hesabına yeni bağlar salınmış, tənəklərə yüksək səviyyədə aqrotexniki qulluq göstərilmişdir. Hazırda rayonda 1000 hektara yaxın üzüm bağı var. Ötən il bu bağlardan 8481,4 ton məhsul toplanmışdır. Hər hektardan orta hesabla 90 sentnerə yaxın məhsul götürən bağbanlar bununla kifayətlənməyəcəklərini söyləyirlər.

Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də bir sıra işlər həyata keçirilir, qabaqcıl texnologiyalara üstünlük verilir. Xüsusilə süni mayalanmanın tətbiq edilməsinə diqqətlə yanaşılır. İnişil rayon üzrə inəklərdən süni mayalandırma yolu ilə 250 baş bala alınmışdısa, 2018-ci ildə 296 baş bala alınmışdır. Süni mayalanmadan alınan hər balaya görə 100 manat subsidiya ödənilmişdir. Bundan başqa, rayonda heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə xaricdən 315 baş məhsuldar cins mal-qara da gətirilmişdir. Heyvandarlığın inkişafına göstərilən diqqətin nəticəsidir ki, ötən ildə də ət və süd istehsalı xeyli artmışdır.

Ümumiyyətlə, rayonda digər kənd təsərrüfatı məhsulları istehsalında da əldə edilən göstəricilər sevindiricidir. 5860 ton kartof, 5310 ton tərəvəz, 2357 ton meyvə və sair istehsal edilmişdir ki, bu da əvvəlki illərdəkindən xeyli çoxdur. Göygöllülər deyirlər ki, qazandıqları bu uğurları son həddhesab etmirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, beynəlxalq dəmiryol və avtomobil yolunun keçdiyi Yevlaxın ölkə üçün böyük strateji əhəmiyyətə malik bölgə olduğu inkaredilməzdir. Son illər rayon sosial-iqtisadi sahədə böyük uğurlara imza atmışdır. Bir-birindən uğurlu gələn illər sırasında 2018-ci ilin də xüsusi yeri var.




## Nailiyyətlər arxayınlıq yaratmır

İnkişaf, qazanılan yüksək nəticələr özünü konkret rəqəmlərdə daha aydın göstərir. İlin iqtisadi yekunlarına dair göstəricilər təbii ki, hələ təhlil olunmayıb. Ötən ilin 9 ayında qazanılan nailiyyətlər bütövlükdə 2018-ci ilin əsl yüksəliş ili olduğunu deməyə əsas verir. Belə ki, keçən ilin 9 ayında ÜDM istehsalının həcmi 508,4 milyon manat olmuşdur ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 19,5 milyon manat, yaxud 4 faiz çoxdur. ÜDM istehsalının 89,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Qeyd edilən dövrdə orta hesabla hər nəfərə 3978,3 manat əlavə dəyər istehsal olunmuşdur ki, bu da müqayisə edilən dövrdəkindən 132 manat çoxdur.

Rayon üzrə orta aylıq əməkhaqqı 302 manat (artım 44,4 manat) olmuşdur. Ümumiyyətlə, bu dövrdə əhalinin sosial müdafiəsi və faydalı məşğulluğunun təmin edilməsi sahəsində diqqət çəkən irəliləyiş əldə edilmişdir. 2018-ci ilin doqquz ayında Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsi 16923 nəfər pensiyaçıya 29,4 milyon, 6463 nəfər sosial müavinət alanlara 4,41 milyon manat vəsait ödəmişdir. Bu dövrdə 1353 nəfər işlə təmin olunmuşdur.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu sahədə uğur qazanmaq, qarşıya qoyulan vəzifələri reallaşdırmaq üçün böyük potensial var. Təsərrüfatlarda torpaq məhsuldar, su bol, əmək ehtiyatları kifayət qədərdir. Torpaq mülkiyyətçiləri ilə aparılan maarifləndirici söhbətlər, onlara dövlət səviyyəsində verilən maddi və mənəvi dəstək Yevlax kəndlisində pambıqçılığa və baramaçılığa böyük maraq yaratmışdır.

Ötən il rayonda 2500 hektar sahədə pambıq əkilmişdir. İstər becərmədə, istərsə də məhsulun itkisiz yığılıb tədarük edilməsində texnikanın gücündən səmərəli istifadə olunmuşdur. Torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə 4580 ton mineral gübrə satılması da yüksək son nəticənin qazanılmasına əhəmiyyətli təsir göstərmişdir.

Yevlaxın baramaçıları da mövsümi fərəhli nəticələrlə başa vurmuşlar. Belə ki, rayonun kümçüləri keçən il 11 ton yüksək keyfiyyətli barama istehsal etmişlər. 2017-ci ildəkindən 5420 kiloqram çox barama istehsal edilməsi bu gəlirli sahənin dinamik inkişafının göstəricisidir. Taxıl, bostan, meyvə-tərəvəz məhsulları, ət, süd, yun, yumurta istehsalında da diqqətçəkən artım müşahidə olunmuşdur.

Tikinti, quruculuq, abadlıq sahəsində də 2018-ci ilin töhfələri fərəh doğurur. Həmin ildə Kür çayı üzərində dəmiryolu körpüsünün, Aran qəsəbəsində Ailə-Sağlamlıq Mərkəzinin tikintisi başa çatdırılmışdır. Həmçinin Mingəçevir şəhəri-Bəhrəmtəpə avtomobil yolunun Yevlax rayonu ərazisindən keçən hissəsi, Qoyunbinəsi-Hacımahmudlu-Qaramanlı kəndlərarası avtomobil yolu istifadəyə verilmiş, şəhər 2 saylı körpələr evi-uşaq bağçası əsaslı təmir edilmişdir. Hazırda Kür çayı sahilində 5 ulduzlu hotelin, 12 saylı-Ərazi Vergilər Departamenti üçün yeni binanın, 31-ci məhəllədə 80 yerlik körpələr evi-uşaq bağçasının, 9 mərtəbəli 45 mənzilli yaşayış binasının, "Data" internet mərkəzinin tikintisi isə davam edir.

2018-ci ildə qazanılan yüksək nailiyyətlər heç kəsdə arxayınlıq yaratmır. Məqsədi bolluq, firavanlıq olan Yevlax kəndlisini indi təzə ilin qayğıları düşündürür.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*



## "Ağsu Aqropark"da 200 nəfər işlə təmin olunacaq



Ağsu rayonunda müasir tələblərə cavab verən yeni istehsalat sahələri yaradılır. Bu sırada sənaye əhəmiyyətli olanı da var, aqrar-sənaye müəssisələri olanı da. Ərəbsarvan kəndi ərazisində yaradılmış "Ağsu Aqropark" ASC məhz sonunculardandır.

Aqroparkın ərazisində 480-i sağmal olmaqla 2 min baş inək üçün nəzərdə tutulan ətlik və südlük fermanın tikintisi başa çatır. Ümumi sahəsi 500 hektar olan ərazidə pivot suvarma sisteminin quraşdırılması isə yekunlaşıb.

Aqroparkda 10 min tonluq beton silos quyuları da tikilib. Bundan başqa, istehsal gücü saatda 10 ton olan yem zavodu qurulur. Zavodun xammal təminatı hər biri 1500 tonluq 6 silos anbarlarından təmin ediləcək.

Parkda istehsal gücü saatda 5 ton olan toxum fabriki də qurulur. Hər biri 150 tonluq 10 anbardan xammalla təmin ediləcək fabrikdə toxumlar təmizlənməklə dərmanlanacaq və müxtəlif ölçülərdə qablaşdırılaraq həm müəssisənin daxili tələbatı üçün istifadə olunacaq, həm də əhalinin toxum tələbatının qarşılanması məqsədilə satışa çıxarılacaq.

Hazırda "Ağsu Aqropark" QSC-də 40-a yaxın müasir maşın, traktor, kombayn və avadanlıqdan ibarət nəqliyyat-texnika parkı var. Maşınların hər biri güclərinə müvafiq qoşğu və aqreqatlarla təmin edilib.

Qeyd edək ki, aqropark tam gücü ilə işə düşdükdən sonra burada 200 nəfərin işləməsi mümkün olacaq.

*Əli SƏLİMOV,*
*"Azərbaycan"*





# Şəhər mədəniyyətinə dəyərli töhfə

Bura indi də teatr məbədidir. Adı dəyişsə də, məramı, məqsədi dəyişməyib. Bir vaxtlar el arasında "Şəhər teatrı" deyilirdi. Elə mətbuat səhifələrində, afişalarda, tamaşaların məramnamələrində də bir müddət belə yazılırdı. Amma onu daha çox bu adla tanıyırdılar:





### Tağıyev teatrı...

Xalqın tərəqqisində mədəniyyətin, incəsənətin inkişafı əhəmiyyətli yer tutur. Buna görə böyük vətənpərvər, millətinin fədakarı Hacı Zeynalabdin Tağıyevin misilsiz xidmətlərindən biri də teatr binası inşa etdirməsi oldu.

Hələ 1873-cü ildən - Azərbaycan milli peşəkar teatrı yaranandan tamaşalara maraq güclənməyə başlamışdı. Hər zaman cəmiyyətin nələrə ehtiyacı olduğunu görməyi, duymağı bacaran Hacı Zeynalabdin teatr binası tikdirmək fikrinə düşdü. 1882-ci ildə o, Qorçakovskaya və Merkuryevskaya küçələrinin tinində inşa olunacaq binanın layihəsini təsdiq üçün müvafiq idarəyə təqdim etdi. 35 vərəqlik layihə hazırlandı. Nəzərdə tutulmuş yerdə Hacı Zeynalabdinin iri taxıl anbarı vardı.

Tikintiyə mühəndis-memar Ferdinand Lemkul başçılıq edirdi. Onun nəzarəti altında tikilən teatr binasının 1883-cü il noyabrın 23-də təhvil-təslimi oldu. Xüsusi komissiyanın tərtib etdiyi aktda planlaşdırma, konstruktiv və yanğından mühafizə kimi xeyli qüsurlar qeyd olundu. Komissiya tələb edirdi ki, bu böyük qüsurlar aradan qaldırılsın.

Tikintidə yol verilmiş çoxsaylı nöqsanlara baxmayaraq, XIX əsrin sonlarında teatr binası Bakıya tayı-bərabəri olmayan hədiyyə idi. Çünki şəhərin belə bir binaya çox böyük ehtiyacı vardı.

Ancaq binanın başı bəlalı oldu, yanğınlara məruz qaldı və yenidən bərpa edildi. Memarlıq-planlaşdırma kompozisiyası, interyer bəzəkləri, fasad dekorunun keyfiyyəti hər dəfə yaxşılaşdırıldı.

### Şəhər teatr binasından məhrum ola bilərdi...

Teatr binasının qayğıları bitmirdi. Üstəlik getdikcə populyarlıqdan məhrum olması, ildən-ilə teatr binası kimi aksiyalarının düşməsi Hacı Zeynalabdin Tağıyevi yeni qərarlar verməyə sövq edirdi. Tağıyev teatr binasının uçulma məsələsi o zaman ortaya çıxdı. Bu, şəhərin teatr binasından məhrum olması ilə nəticələnə bilərdi. Gəlir mənbəyi kimi, teatra maraq göstərən Bakının bəzi işgüzar adamları işə başladılar. Onlardan biri Bakıda Teatr meydanında "Nümunəvi teatr binasının inşası üzrə ortaqlıq" adlı səhmdar cəmiyyəti yaratdı. Cəmiyyətin təsisçiləri 1897-ci il oktyabrın 6-da Şəhər Dumasına Teatr meydanında sahə ayrılması ilə bağlı müraciət etdilər. Üçmərtəbəli teatr binasının "Avropadakı nümunəvi teatr binalarının planı üzrə fasadın üzü əsas küçəyə istiqamətləndirilərək" tikilməsi, işıqlandırılmanın texnikanın ən son nailiyyətlərindən yararlanaraq qurulması nəzərdə tutulurdu.

Yeni teatr binasının inşası haqqında söz-söhbətlər dolaşdığı vaxt Hacı Zeynalabdin öz teatrının yenilənməsi ilə ciddi məşğul olmağa başladı. O, 1898-ci ildə teatrın rekonstruksiya layihəsinin tərtibi və bütün memarlıq-tikinti işlərinə nəzarəti mülki mühəndis P.İ.Koqnovitskiyə həvalə etdi. Teatrın memarlıq-planlaşdırma strukturuna əhəmiyyətli dəyişiklik etmək istəməyən Koqnovitski kiçik düzəliş işləri ilə kifayətlənmək niyyətindəydi. Onun layihəsi teatrın sahibinin istəyinə uyğun deyildi. O, Bakıya digər teatr binaları ilə rəqabət apara biləcək çox dəbdəbəli teatr binası bağışlamaq arzusundaydı.

Tağıyevin dəvəti ilə Koqnovitski ilə yanaşı, teatrın yenidən qurulmasında istedadlı memar Qoslovski də iştirak etdi. Onun rəhbərliyi ilə gözəl işlənmiş əsl teatr binası inşa olunmalı idi. Bu məqsədlə çox böyük işlər görüldü. Tamaşaçı zalında yerlərin sayı, demək olar ki, iki dəfə artırılaraq 1200-ə çatdırıldı. Orkestrin yeri yeni tərzdə quruldu. Zallar nəfis dekorasiya ilə göz oxşadı. Bina texniki cəhətdən də təkmilləşdirildi, elektrik işıqlandırma ilə təchiz olundu.

### Azərbaycan teatrının inkişafında yeni səhifə

Tağıyev teatrı Azərbaycan teatrının inkişafında yeni səhifə açdı. 1890-cı il martın 10-da bu teatrda göstərilən komediya ən böyük teatr hadisələrindən birinə çevrildi. Qabaqcadan vurulmuş elanda tamaşadan gələn gəlirin yoxsul şagirdlərə xərclənəcəyi bildirilirdi. 1901-ci il yanvarın 10-da burada orucluq bayramı münasibətilə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" tamaşası oynanıldı. Əsərə səhnə quruluşunu Əbdürrəhim bəy özü vermişdi. Martın 17-də Tağıyev teatrında Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər") komediyası göstərildi.

1908-ci il yanvarın 25-də müsəlman Şərqində opera janrında ilk əsərin - Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərinin ilk tamaşası da bu teatrın binasında oldu.

Mətbuat səhifələrində tez-tez Tağıyev teatrında keçirilən tədbirlər, tamaşalar haqqında yazılırdı.

### Teatr binasında yanğınlar…

1909-cu ildə teatrın binası yandırıldı. Binanı yenidən tikməli oldular. Əvvəlki ikimərtəbəli teatr binasının yerinə üçmərtəbəli bina inşa olundu. Əsas fasadın eni də genişləndirildi, divarların hündürlüyü isə 6,75 metrədək artırıldı.

Ancaq 1918-ci ildə Bakıda fəaliyyət göstərən Tağıyev teatrının binası erməni daşnakları tərəfindən vəhşicəsinə yenidən yandırıldı. Bu dəfə binanın yalnız daş və dəmir-beton karkası qaldı. Teatr bir də Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra, 1921-1922-ci illərdə bərpa olundu. Teatrın layihəsini Bakının baş memarı, mülki mühəndis Zivər bəy Əhmədbəyov tərtib etdi.

Bu teatra 1922-ci ildə Dadaş Bünyadzadənin adı verildi. Açılış mərasiminə səksən dörd yaşlı Hacı Zeynalabdin Tağıyev də dəvət olundu. Tağıyev həmişə əyləşdiyi lojada görünəndə bütün zal ayağa qalxdı. Milyonçulara qənim kəsilən yeni hökumətin nümayəndələri belə onu alqışladılar. Bu münasibətdən təsirlənmiş Hacı Zeynalabdin göz yaşlarını saxlaya bilmədi.

1922-ci ildən binada Akademik Milli Dram Teatrı, 1960-cı ildən isə Azərbaycan Dövlət Musiqili Teatrı fəaliyyət göstərdi. 1988-ci ildə uçmaq təhlükəsinə görə sökülən binanın yerində yenisi inşa olundu. 1998-ci ilin oktyabrında teatr binasının rəsmi açılışı keçirildi. 2013-cü ildə isə teatr binasında əsaslı bərpa və yenidənqurma işləri aparıldı.

Bakıda ilk milli teatr binasının tikilməsindən 135 il keçir. Artıq Azərbaycanın paytaxtında bir deyil, neçə-neçə teatr fəaliyyət göstərir. Bura isə yenə teatr məbədidir. Adı dəyişsə də, məramı, məqsədi dəyişməyib. Hacı Zeynalabdin Tağıyevin arzusunu indi burada yerləşən Azərbaycan Dövlət Musiqili Teatrı həyata keçirir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Dövlət Simfonik Orkestrinin yeni ildəki ilk konsertində Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndiriləcək




Yanvarın 11-də Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri konsert proqramı ilə çıxış edəcək.

AZƏRTAC xəbər verir ki, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçiriləcək konsertin solisti beynəlxalq müsabiqələr laureatı İsrafil Səlimov (truba) olacaq.

Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə baş tutacaq konsertdə Azərbaycan və xarici ölkə bəstəkarlarının yaradıcılığına müraciət ediləcək.

## Opera və Balet Teatrı ilin ilk premyerasına hazırlaşır

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında yeni ilin ilk premyerası - Frans Şubertin musiqisi əsasında səhnəyə qoyulmuş "Dahi hekayəçi" baleti təqdim olunacaq.

Teatrın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yanvarın 26-da nümayiş olunacaq balet görkəmli Danimarka yazıçısı Hans Xristian Andersenin nağıllarına həsr edilib. Səhnə əsərinin süjet xəttini yazıçının "Kənd xoruzu və flüger", "Qar kraliçası", "Düyməcik", "Qalay əsgər", "Sehrli dibçək", "Kralın təzə libası" kimi dünyaca məşhur nağılları təşkil edir. Andersenin nağılları əsasında baletin librettosunu Əjdər Ulduz yazıb. Tamaşanın quruluşçu baletmeysteri Opera və Balet Teatrı balet truppasının bədii rəhbəri, xalq artisti Kamilla Hüseynova, dirijoru Orxan Həşimov, quruluşçu rəssamı əməkdar mədəniyyət işçisi Tehran Babayevdir.



Baletdə teatrın balet truppasının artistləri iştirak edəcəklər. Əsas rollarda əməkdar artistlər Samir Səmədov, Nigar İbrahimova, Makar Ferştandt, Fərid İbrahimov, solistlərdən Elmira Süleymanova, Anar Mikayılov, Timur Oduşev, Ayan Eyvazova, Cəmilə Kərimova və digərləri çıxış edəcək.

Azyaşlı tamaşaçılar üçün nəzərdə tutulmuş baletin son dərəcə gözəl musiqisi, orijinal xoreoqrafiyası və baxımlı dekorasiya və səhnə kostyumları, heç şübhəsiz, uşaqlar və onların valideynlərinin xoşuna gələcək.

## Repressiya qurbanları

# "Mənim bir hökumətim olub: Xalq Cümhuriyyəti!"

Məşədi Mehralının adını ilk dəfə yaşlı insanların 1918-ci ilin yanvarında baş verən "Şamxor davası" (bəzən "Eşelon davası" da deyirlər) haqqında söhbətlərindən eşitmişəm.

...Milli Müsəlman Komitəsinin və Gəncənin general-qubernatoru Xudadat bəy Rəfibəylinin təklifi ilə "Müsavat"ın Gədəbəyin Şahtalası üzrə nümayəndəsi Əsgər ağa və Məmməd ağa Şəkibəyovlar, habelə Şəmkirin pristavı Mustafa ağa Sultanov, Məcid ağa, Məşədi Mehralı, Qara Musa və onların yaxın ətrafı Şəmkirçayın sol sahilində Qala yerində cəmləşirlər. Məqsəd 1917-ci ilin oktyabrında süquta uğramış çar Rusiyasının başsız qalan ordusunun Türkiyənin şərq cəbhəsindən geri dönərkən onlardakı silah-sursatın ermənilərə verilməsinin qarşısını alıb, yaranmaqda olan Könüllü İslam Ordusunun bölmələrinə çatdırmaq idi. Məşədi Mehralı 20 günədək davam edən "Eşelon davası"nda, Gəncə üsyanında və ondan sonra ömrünün axırınadək bolşevik-erməni birləşmələrinə qarşı mübarizədə böyük fədakarlıqlar göstərmişdir.

* * *

1920-ci ilə qədər ömrünü bolşeviklərlə mübarizədə keçirən Mehralı Hacı Kazım oğlu 1883-cü ildə Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində dünyaya göz açıb. Ailədə beş qardaş olublar: onların dördü - Söyünqulu (Hüseynqulu), Gürzalı, Mirzəali və İsmayıl gimnaziya təhsili almışdı. Ailənin başçısı Hacı Kazım isə bölgədə sayılıb-seçilən təsərrüfat sahibi, mülkədar, həyat yoldaşı Cavahir xanım evdar qadın idi.

Söyünqulu Çobankənddə rus dili müəllimi işləyirdi. O, erməni quldurlarının azərbaycanlı kəndlərinə hücumlarının, talanlarının qarşısının alınmasında, elin, obanın müdafiəsində öndə gedirdi. Gürzalı əkinçiliklə və maldarlıqla məşğul olurdu. Mirzalı da təsərrüfat sahibi idi, amma ədəbiyyata meyilli idi, şeirlər yazırdı. Evin sonbeşiyi İsmayıl meşə gözətçisi işləyirdi.

1890-cı ildə Hacı Kazım rəhmətə gedəndən sonra Məşədi Mehralı böyük qardaşı Söyünqulunun və onun həyat yoldaşı Şəkərin himayəsində böyüyür. İlk təhsilini kənddə molla yanında alır, qardaşından rus dilində yazıb-oxumağı öyrənir. Məşədi Mehralı 18 yaşına çatanda müstəqil yaşamağa başlayır. Sonra Molla Zeynalın qızı Züleyxa ilə evlənir. Çar dönəmində meşə təsərrüfati idarəsində üç il meşə nəzarətçisi işləyir. 6 il mal-qara alqı-satqısı ilə məşğul olur və həmin dövrdə "Müsavat"ın sıralarına qoşulur. 1922-ci ilə kimi Kiçik Qaramurad kəndində yaşayır. Sonra Kiçik Qaramuraddan köçərək Parakənddə yurd salır. Göyçəətrafı ərazilərdə məskunlaşdırılan ermənilər tez-tez Məşədi Mehralı Sultanov kimi imkanlı azərbaycanlıların malikanəsinə silahlı hücum edib mülk sahiblərini öldürür, evləri talayır, tövlələrə, yataqlara od vurur, camaatı kənddən qaçıb getməyə məcbur edirdilər. Məşədi Mehralı həmkəndlilərinin çoxu dədə-baba torpaqlarının işğalına hesablanmış qırğınların qarşısının alınmasında, milli hökumət quruculuğunda əllərindən gələni əsirgəmirdilər.

"Eşelon davası"ndan 15-20 gün sonra qərb bölgəsində kütləvi qırğınlar və qarətlər törədən daşnak Amazasp və Andronikin Göyçəətrafı ərazilərdə düşərgə salmış hərbi birləşmələri Krasnoselsk (indiki Ermənistan) istiqamətindən keçib terrorçu "Daşnaksütyun" partiyasının Çardaxlı kəndi üzrə nümayəndəsi keşiş Vahanla əlaqə yaratmaq, silahlandırılmış yerli ermənilərlə hücuma keçib əvvəl Şəmkiri ələ keçirmək, sonra Dəstəfur (indi Daşkəsən) erməniləri ilə birləşərək Gəncəni işğal etmək niyyətində idilər. İllərlə arzusunda olduqları bu planı həyata keçirmək üçün iğtişaşlar və qətliamlar törədən daşnakların silahlı dəstələri Şahtalasından keçəndə Mustafa ağanın və Məcid ağanın başçılıq etdikləri özünümüdafiə dəstələri tərəfindən qanlarına qaltan edilmişdilər. Məğlubiyyətin ağrı-acısını həzm edə bilməyən ermənilər məqsədlərinə nail olmaq üçün bölgədə böyük nüfuz sahibi Məşədi Mehralını ələ almaq, onunla "dostluq körpüsü" yaratmaq fikrinə düşürlər. Məşədi Mehralı bu işə qol qoymamaq üçün ona vəd olunan qızılın miqdarını artırmışdı ki, razılıq pozulsun. Amma ermənilər onun istədiyi miqdarı verirlər.

"Sövdələşmə"dən sonra ermənilər Şınıx istiqamətindən keçərək Başkənd erməniləri ilə birləşib Tovuz tərəfdən Şəmkirə doğru istiqamət götürəcəklərinə tam əmin olurlar. Lakin Məşədi Mehralı onların bu "dostluq körpüsü"ndən keçmələri üçün bir şərt də qarşıya qoyur. "Silahlarınızı yorğan-döşəyin arasında gizlədin, üstünə xırda ev əşyaları, qab-qacaq, ot-ələf yığın ki, görünməsin. Elə təsəvvür yaradın ki, guya köçüb Şəmkir tərəflərdə ev-eşik olmağa gedirsiniz. Yerli camaat bilsə, bizim də axırımıza çıxar. Bir də ehtiyat üçün bizə üç-dörd pulemyot, 15-20 beşaçılan verin ki, bir əngəl olsa, sizi müdafiə edə bilək..." Hətta Məşədi Mehralı onların yolları yaxın olsun deyə Dikdaş-Çardaxlı istiqamətindən keçməyi məsləhət görür. Ermənilər bu yolun daha əlverişli olduğunu bildiklərindən dərhal fikirlərini dəyişib Dikdaş-Çardaxlı yoluna razılıq verirlər. Səhəri gün axşam düşənədək iki su səhənginin birini qızıl pulla, o birini də zinət əşyaları ilə doldurub 2 pulemyot və 15 beşaçılanla birlikdə gətirib Məşədi Mehralıya çatdırırlar. Bu "razılaşma"dan sonra Məşədi Mehralı dostu Luqa Namazla Məcid ağaya xəbər göndərir: "Durma, gəl! Düşmən təzə sevdaya düşüb..."




Vədələşdikləri vaxtda ermənilərin köçü Xınna dərəsinin yaxınlığında Dikdaş kəndinin girəcəyində görünəndə Məcid ağa və Məşədi Mehralının dəstəsi yerlərini tutmuşdular. Daşnak quldurların sonuncusu gözətçilərdən uzaqlaşanda qəfil atəş səsləri aləmi başına götürdü. Qırhaqırda 150-yə yaxın erməninin heç biri oradan salamat çıxa bilmir. Məşədi Mehralı və Məcid ağa daşnaklardan alınan atın, silahların bir neçəsini dəstə üzvlərinə verir, qalanını Məşədi Mehralı köməyə gəlmiş kənd camaatına paylatdırır. Məşədi Mehralı daşnakların ona gətirdikləri səhəngi boşaldanda görür ki, bu, Göyçəətrafı müsəlman kəndlərindən qarət olunan qadın qızıl-zinət əşyalarıdır. Boyunbağılara, sırğalara, üzüklərə çoxlu silah aldırır.

* * *

Xalq düşünürdü ki, Milli hökumət qurulan kimi daşnaklardan canları qurtaracaq. Məşədi Mehralı bölgədə "Müsavat"ın fəallarından idi, 1918-ci ilin iyun ayında cümhuriyyət polisi yarananda erməni quldurlarına qarşı mübarizədə daha böyük işlər görmək məqsədilə Gədəbəydə strajnik işləməyə başlayır. 1920-ci ildə Məşədi Mehralının həyatında məşəqqətli günlər başlayır. Milli hökumətin süqutu ilə heç cür barışa bilmir, qohum-əqrəbanı başına yığıb Gəncə üsyanında ölüm-dirim savaşına qatılır.

Gəncə üsyanı yatırıldıqdan sonra bolşeviklər cümhuriyyət liderlərinə, müsavatçılara və milli ruhlu insanlara divan tutmağa başlayırlar. Məşədi Mehralı Sultanov da 18 nəfər silahdaşı ilə həbs edilir. İşin araşdırılması Fövqəladə Komissiyasının Şəmkir qəza şöbəsinə həvalə olunur. Lakin Məşədi Mehralı və onun dəstə üzvləri şəmkirli milli təəssübkeşlərin köməyi ilə bir neçə gündən sonra azad edilirlər.

Yeni hökumətin düşməni kimi tanınmağı Məşədi Mehralının yaxın qohumlarına, xüsusən də "Müsavat" hökuməti zamanında təxminən bir il Gədəbəyin pristavı işləmiş, indi qatı bolşevik Rüstəm Əliyevin, çar hökuməti zamanında uzun illər məhkəmə orqanlarında Gədəbəy nahiyyəsi üzrə hakim köməkçisi olmuş Rəhim Hüseynovun və bir vaxtlar "Müsavat"a "can deyib, can eşidən" İslam Sadıqovun siyasi fəaliyyətlərinə inamsızlıq yarada bilərdi. Odur ki, bu nigarançılığı aradan götürmək üçün onların təhriki ilə Məşədi Mehralı yeni hökumətin tərəfdarları sırasına qatılır ÜİK(b) Partiyasına üzv olur. Gəncədə NKVD-nin nəzdində yaradılan muzdurlar komitəsinin Kiçik Qaramurad kəndi üzrə sədri təyin edilir. O, bu vəzifədə çalışdığı 1920-1921-ci illərdə bolşeviklərin sadə insanları necə aldatdıqlarının, yeni hökumətin fırıldaq və kələkbazlıqlarının şahidi olur. Bolşevik-daşnak qiyafəli quldurların Azərbaycan kəndlərinə basqını, talançılığı da milləti pis günə qoyurdu. Bütün bu iyrənc proseslərin şahidi olan Məşədi Mehralı Sultanov üzdə bolşeviklərin adamı olsa da, əslində "əksinqilabçı"ların tərəfində idi. Bunu yeri gələndə yaxın ətrafına açıq-aşkar bildirirdi. Məsələ Gəncədə İnqilabi hökumətin də qulağına çatmışdı. Elə buna görə 1921-ci ildə Məşədi Mehralı Sultanov firqə üzvlüyündən və NKVD-nin muzdurlar komitəsinin Kiçik Qaramurad kəndi üzrə sədri vəzifəsindən çıxarılır.

Yaxın dostları Məşədi Mehralının xasiyyətinə yaxşı bələd olduqlarından xatanı özlərindən uzaqlaşdırmaq üçün onu bu dəfə Gədəbəy rayonuna adi milis işçisi vəzifəsinə düzəldirlər. Bu zaman da milis nəfərlərinin qarətlə, rüşvətlə, talançılıqla məşğul olduqlarını, ermənilərin tərəfini saxladıqlarını görəndə bunları özünə bağışlaya bilmir, il yarımdan sonra ərizə yazıb işdən çıxır.

* * *

Məşədi Mehralı Sultanovun beş oğlu, iki qızı vardı. Dünyanın belə çətin vaxtında səkkiz baş ailəni dolandırmaq, elin, obanın xeyir-şərində iştirak etmək o qədər də asan deyildi. Bunun başlıca səbəblərindən biri Məşədi Mehralının daim nəzarətdə olması idi. O, tezliklə köhnə tanışı Hüseyn bəy Hacıyevin vasitəsilə meşə təsərrüfatı idarəsinə gözətçi düzəlir. 1925-ci ilə kimi burada çalışır. Hər cığırına, dərəsinə, talasına bələd olduğu dağlarda işgəncənin, bolşevik zorakılığının qurbanı olan yüzlərlə el-oba təəssübkeşi ilə rastlaşır. Onlara əlindən gələn köməyi edir, ac olanı ərzaq, əli silah tutanı sursat sarıdan korluq çəkməyə qoymur.

Milli azadlıq və cümhuriyyət arzulu insanlara və qaçaqlara qoşulur. Çar dönəmində, cümhuriyyət zamanında Şəmkir rayon pristavı işləyən Mustafa ağa Sultanovun "Həqiqi Sinfi Mübarizə Təkilatı"na üzv yazılır.

1928-ci ildə NKVD-nin silahlı dəstəsi və əsgərlər Parakənd kəndini mühasirəyə alıb, camaatı kəndin yığnaq yerinə cəm edib silahları milisə təhvil verməyi, hamının bir nəfər kimi hökumətə təslim olmasını tələb edir. Yeni hökumətin təhriki ilə hamı gətirib bir-bir silahını və patrondaşını NKVD-yə təhvil verir, sonra da keçib adını hökumət adamlarına qeyd etdirir. Məşədi Mehralıya dəfələrlə təkid etsələr də, o, "məndə silah yoxdur" deyir. Amma hamı bilirdi ki, Məşədi Mehralı üstündə mauzer, beşaçılan və xəncər gəzdirir. Milislər, ordu əsgərləri kəndə gəlirdilər ki, onu həbs edib aparsınlar, tuta bilmirdilər. Bir dəfə yerli hökumət kəndin giriş-çıxışına, eləcə də qonşuluğundakı firqəçi kəndçilərindən evinə gizli güdükçü qoyur. Onun kənddə olduğunu biləndən bir-iki saat sonra milis işçiləri və əsgərlər Parakəndi ikiqat mühasirəyə alıb Məşədi Mehralını həbs etmək istəyirlər, o, yenə də qaçıb canını xilas edə bilir.

Əsgərlər, NKVD "otryad"çıları gecə-gündüz onun axtarışına çıxırlar. 1929-cu ilin payızında, QPU-nun növbəti əməliyyatı zamanı Məşədi Mehralı evində ailəsi ilə bir yerdə mühasirəyə alınır. Səs-küyə həyətə axışan camaatın köməyi ilə aradan çıxır. Həyat yoldaşı Züleyxa, övladları Cahangir, İsgəndər, Həmid, Şir, Məhəmməd, qızları Zərnişan və Gülnişan həbs edilərək FK-nın Şəmkir şöbəsinə gətirilib Gəncə türməsinə yatab edilirlər. Şəraitsizliyə və işgəncələrə dözməyən Cahangir həbsxanada dünyasını dəyişir.

Bir müddət Bakıda, Bayıl türməsində saxlanılan ailə 1930-cu ilin əvvəlində Qazaxıstanın şimalına sürgün edilir. Yaşayış mümkün olmayan bu yerlərdə İsgəndər, daha sonra Həmid dünyasını dəyişir. "Xalq düşməni"nin ailəsi kimi həbs edilərək sürgünə göndərilən ailə 1933-cü ildə 5 nəfərlə geri dönüb hökumətin göstərişinə əsasən Şəmkir rayonunun Morul kəndində məskunlaşır.

Ailəsinin sürgün xəbərini eşidən Məşədi Mehralı mühacirət etmək fikrinə düşür. Axtarışda olduğuna görə başqa ad-familiya ilə İran pasportu düzəltdirib qeyri-qanuni yolla İrana keçəndə sərhədçilər tərəfindən həbs edilir və üç il həbsxana həyatı yaşayır. Məşədi Mehralı 1935-ci ildə cəza müddətini başa vurub azadlığı çıxanda bilir ki, həyat yoldaşı və uşaqları sürgündən qayıdıb.

Şəmkirə ailəsinin yanına gəlir. Cahangir, Həmid və İsgəndərin ölümündən sarsıntı keçirir. Ailə üzvləri kolxozda çalışmaqla həyətyanı sahələrini də əkib-becərirdilər, qapıda üç at, bir araba, az sayda qoyun-quzu, toyuq-cücə var idi. Məşədi Mehralı özü də əkinbiçin işinə həvəsli idi. Qolunu çırmayıb bir tərəfdən də o, təsərrüfat işlərinə başlayır. Çoxları "zəmanənin pis vaxtıdı, hökumət işinə əl at, kolxozda işlə" deyə təkid etsə də, razı olmur.

"Qaniçəndən hökumət olmaz, mənim günümə bir qızıl onluq versələr də, bu hökumətə işləmərəm. Mənim bir hökumətim olub - Xalq Cümhuriyyəti! Nə vaxt qayıtsa, onda işləyəcəyəm, amma indi əlimin zəhməti ilə ailəmi dolandıracağam", - deyirdi.

Bütün bunlardan xəbərdar olan Şəmkir NKVD-nin, eləcə də rayon Dövlət Siyasi İdarəsinin əməkdaşları Məşədi Mehralını nəzarətsiz buraxmırdılar. 1937-ci ildə oğlu Şiri Tiflisdə təhsil almaq üçün əmisi Əlinin yanına göndərib ailənin də xəbəri olmadan gizli əksinqilabi fəaliyyətə keçir.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda Məşədi Mehralının oğlu Məhəmməd və Şir "xalq düşməni"nin övladları kimi ön xəttə - cərimə batalyonuna göndərilirlər. Ayrı-ayrı hərbi hissələrdə olsalar da, hər iki qardaş döyüşlərdə şücaət göstərir. Belə döyüşlərin birində Şir ağır yaralanır, bir müddət hospitalda müalicə olunaraq ordudan tərxis edilir. Məhəmməd isə müharibənin sonlarına yaxın döyüşlərdə həlak olur.

1943-cü ilə kimi sovetlərə qarşı qeyri-leqal şəkildə əksinqilabi fəaliyyət göstərən Məşədi Mehralı Sultanov 14 nəfər əqidə yoldaşı ilə birlikdə yenidən İrana, oradan da Türkiyəyə, İstanbula getmək, mühacir həyatı yaşayan "Həqiqi Sinfi Mübarizə Təkilatı"nın üzvləri ilə birlikdə itirilmiş milli müstəqilliyin bərpası uğrunda daha təsirli formada mübarizəsini davam etdirməyi qərara alır. 1943-cü il iyulun 2-də 14 nəfərlik dəstə üzvü ilə birlikdə gizli yolla Arazı keçmək istəyərkən sərhədçilər tərəfindən tutulur. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının 528 №-li orderinə əsasən o, XDİK-in həbsxanasında saxlanılır. "Cinayət işi"nin istintaqını Dövlət Siyasi İdarəsi dövlət təhlükəsizliyi kiçik leytenantı Karapetyan aparır. Bir il dörd aya yaxın davam edən işgəncəli istintaq 1944-cü ilin sonlarına yaxın başa çatır.

Məşədi Mehralı Sultanov və onun dəstə üzvləri SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında keçirilən Xüsusi Müşavirənin 11 noyabr 1944-cü il tarixli qərarı ilə mühakimə olunurlar. Dəstə üzvlərinin hər biri 5 ildən 10 ilədək azadlıqdan məhrum edilməklə sürgünə göndərilir, Məşədi Mehralı Sultanov isə əmlakı və mülkü müsadirə olunmaqla ən ağır cəzaya - güllələnməyə məhkum edilir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Azərbaycanın qızıl beyinləri

## Beynəlxalq olimpiadalara peşəkar və məsuliyyətli hazırlıq gedir

Əjdər Fərzullazadə hazırda X sinifdə təhsil alır. Ötən il dekabrın 10-da Botsvanada təşkil olunan yeniyetmələrin 15-ci Beynəlxalq Elm Olimpiadasında (İJSO) Azərbaycanı təmsil edən 6 şagirddən biridir. O və dostları dünyanın 48 ölkəsindən məktəblilərin iştirak etdiyi bu olimpiadada bilik və bacarıqlarını nümayiş etdirərək 5 bürünc medal qazanıblar.









Dediyinə görə, hazırlıq mərkəzində məşğələlərə elə bu yarışa hazırlaşmaq məqsədi ilə qatılıb. 2018-2019-cu tədris ilindən, oktyabr ayının əvvəllərindən Beynəlxalq Elm Olimpiadasının hazırlıq prosesinə cəlb olunub. Bu məqsədlə öncə seçim turuna qatılıb və seçilən 35 şagirddən biri olub. Əjdər bir ay kimya, fizika və bilologiya üzrə əlavə hazırlıq keçib. Bir aylıq hazırlıqdan sonra daha bir seçimə qatılıb. Bu dəfə olimpiadaya gedəcək 6 şagirddən biri olub. Daha bir aylıq intensiv məşğələdən sonra olimpiadaya gediblər və 6 nəfərdən 5-i bu yarışdan bürünc medalla qayıdıb.

### "Məşğələlərə qatılmadan hər hansı beynəlxalq yarışda fərqlənmək çətin olardı"

Beynəlxalq yarışda iştirak və oradan nəticə ilə qayıtmaq o qədər də asan məsələ deyil. Bir neçə gün çəkən olimpiadada 6 şagirdlə iştirak həftələrlə, aylarla çəkən uzun, çətin və intensiv hazırlıq prosesi tələb edir. Şagirdlər dərinləşdirilmiş proqram əsasında intensiv məşqlərə cəlb edilir və çox ciddi hazırlıq mərhələsindən keçirlər. Keçdiyi bu prosesi xatırladan Əjdərin fikrincə, beynəlxalq yarışdakı uğurunda hazırlıq mərkəzində keçdiyi məşğələlərin rolu çox böyükdür: "2018-ci ildə keçirilən Respublika Fənn Olimpiadasından və beynəlxalq yarışlara seçim imtahanlarından uğurla çıxdım. Amma Fizika, riyaziyyat və informatika təmayüllü liseydə təşkil edilən beynəlxalq olimpiadalara hazırlıq mərkəzində məşğələlərə qatılmadan hər hansı beynəlxalq yarışda fərqlənmək çətin olardı. Buradakı məşğələlərin fərqi həm də ondadır ki, şagirdlər də istedadlı və ayrı-ayrı fənlər üzrə xüsusi məşğul olan uşaqlardır. Belə ki, hər hansı məsələni uşaqlar öz aralarında da müzakirə edib müəyyən nəticəyə gələ bilirlər. Müəllimlərimiz isə həm olimpiada təcrübəsi olan, həm də bilikli insanlardır. Bizimlə işləmək onlar üçün çətin olmur".

Kimya fənni üzrə 1 həftədir intensiv məşqlərə başladıqlarını deyən Əjdər artıq növbəti beynəlxalq olimpiadanın - aprel ayında keçirilməsi nəzərdə tutulan Beynəlxalq Mendeleyev Kimya Olimpiadasının seçim mərhələsinə hazırlaşır. Yanvarın 26-da Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında iştirak edəcək şagirdləri müəyyənləşdirmək məqsədilə imtahan keçiriləcək. Əjdər deyir ki, bu seçmələrdən keçərsə, həmin yarışa göndəriləcək 4 və ya 6 nəfərdən biri olacaq.

### "Bu hazırlıq mənə proqramlı işləməyi öyrətdi"

Yanvarın 26-sı Xanım Yaqublu üçün də həyəcanlı gün olacaq. Əjdər kimi yeniyetmələrin 15-ci Beynəlxalq Elm Olimpiadasından medalla ayrılan Xanım uğura gedən bu yolu necə keçdiyindən danışır: "Olimpiada öncəsi ciddi hazırlaşdıq. Bakı Mühəndislik Universitetində kimya-biologiyadan, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin laboratoriyasında isə fizika üzrə təcrübə keçdik. 4 gün ərzində olimpiadada verilə biləcək məsələlər üzərində çalışdıq. Bu, bizə müəyyən qədər olimpiada məsələsi həll etmə təcrübəsi qazandırdı".

Xanım deyir ki, olimpiadalara hazırlıq hər bir məktəblinin həyatında xüsusi rola malikdir. Bu, sadəcə, uğur qazanmaq və həmin uğur sayəsində ali məktəblərin qapılarının üzünə açılması deyil, həm də insanın özünün bəzi keyfiyyətlərinin inkişafı deməkdir: "İnsanın dünyagörüşü dəyişir. Hadisələrə fərqli yanaşır. Beynəlxalq olimpiadaya hazırlıq prosesində insan sürətli işləməyi və gündəlik işini proqramlaşdırmağı öyrənir. Bu hazırlıq mənə ən çox proqramlı işləməyi öyrətdi. Məsələn, elm yarışına hazırlıq məqsədilə bir aya 3 kitabı oxuyub bitirməli idik. Müəllim ən yaxşı kitabları seçib vermişdi. Adi vaxtlarda bir kitabı bir ilə ancaq oxuyuram. Ancaq verilən 3 kitabı bir ayda bitirdim. Üstəlik, heç bir işimi təxirə salmadan".

### Onları olimpiadalara kimlər hazırlaşdırır?

İstedadlı uşaqlarla işləmək o qədər də asan deyil. Üstəlik, həmin istedadlı şagird beynəlxalq yarışlara qatılacaqsa...

Dünyanın ayrı-ayrı ölkələrindən ən istedadlı və hazırlıqlı şagirdlərlə birgə girdikləri bilik yarışından qalib çıxmaları üçün Azərbaycan məktəbliləri də düzgün istiqamətləndirilməli, müvafiq şərtləri ödəməlidirlər. Bunun üçün tələb olunan kadr ehtiyacı isə müxtəlif yollarla təmin edilir. İstər orta ümumtəhsil məktəblərində çalışan müəllimlər, istərsə də universitetlərin professor və müəllimlərindən bu prosesə cəlb edilənlər var.

Təhsil İnstitutunun şöbə müdiri Fuad Qarayevin sözlərinə görə, bölgələrdəki məktəblərin şagirdləri fərqləndiyi kimi, müəllimlərdən də diqqəti çəkənlər var: "Məsələn, Neftçalanın Xilli kənd məktəbinin müəlliminin şagirdləri hər yarışda yer tutur. Neftçala, Gəncə, Xaçmaz rayonlarından olan 5-dən çox belə müəllim var ki, onlar qrant layihəsi çərçivəsində istedadlı uşaqları hazırlaşdırırlar".

Fuad Qarayev bildirir ki, uşaq hazırlaşdırdığı üçün Bakıya gələ bilməyən müəllimlər elə yerlərdəcə fənn müsabiqələrində fərqlənən şagirdlərin hazırlığına cəlb olunacaq. Ətraf rayonlardakı istedadlı uşaqların hazırlığı da həmin müəllimlərə yönləndiriləcək. Nəzərdə tutulub ki, Bakıda və rayonlarda xüsusi siniflər yaradılsın və istedadlı uşaqların yetişdirilməsində belə müəllimlərdən istifadə edilsin. Artıq bu istiqamətdə işlərə başlanılıb və 15-ə yaxın rayonda belə siniflərin təşkili reallaşıb.

### Ali məktəb müəllimləri hazırlıq prosesinə həvəslə qatılırlar

Olimpiadalara hazırlıq prosesinə ali təhsil müəssisələrinin müəllimləri daha çox cəlb edilir. Məsələn, BDU-nun professoru Naqif Nəbiyev fizika, İqrar Nəzərov kimya, AMEA Botanika İnstitutunda çalışan Rəşad Səlimov, Xəzər Universitetinin professoru Nazim Kərimov riyaziyyat fənnindən hazırlıq prosesində fəal iştirak edirlər. Bu işdə keçmiş olimpiada qalibləri olan tələbələr də fəaldırlar. Yerli və beynəlxalq olimpiadaların qalibi və iştirakçısı olan gənclərin biliyindən bu istiqamətdə geniş istifadə olunur.

Məsələn, Beynəlxalq Kimya Olimpiadasının qalibi, Moskva Dövlət Universitetinin aspirantı Milana Ağayeva, Beynəlxalq Riyaziyyat Olimpiadasının qalibi İsmət Ağayev, Beynəlxalq Riyaziyyat Olimpiadasının qalibi, ABŞ-ın Stenford Universitetinin PHD məzunu Cəfər Cəfərov, Beynəlxalq Fizika Olimpiadasının qalibi Şəmistan Lətifov, Latın Amerikasının ən böyük universiteti, Meksikada yerləşən UNOM Universitetinin professoru Mübariz Qarayev azərbaycanlı şagirdləri beynəlxalq olimpiadalara hazırlaşdıranlar arasındadır.

Təcrübə göstərir ki, şagirdlərin olimpiadalara hazırlığında olimpiada yolu keçmiş şəxslərin iştirakı daha yaxşı nəticələr verir. Bu səbəbdən keçmiş olimpiada qaliblərini Bakıdakı hazırlıq mərkəzlərində görmək mümkündür. Elə bu gün də onlardan biri buradadır. Özü hələ tələbə olan bu şəxs - Koreya Qabaqcıl Elm və Texnologiya Universitetinin II kurs tələbəsi Mirəli Əhmədli olimpiadalarla VII sinifdən maraqlanmağa başlayıb: "VIII sinifdən beynəlxalq olimpiadalara hazırlaşmağa başladım. Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasına qatılaraq bürünc medal qazandım".

Mirəli qatılması mümkün olan bütün olimpiadalarda iştirak edib. Dünyanın ən nüfuzlu universitetlərindən birində təhsil almasında da əldə etdiyi bu nailiyyətlərin böyük rolu olub. Universitetdə qış semestri olduğundan 2 ay Bakıda qalacaq. Bu fürsətdən istifadə edərək burada uşaqlarla məşq keçəcək: "Ötən il də qış tətilimi burada keçirdim. Həm təcrübəmi, biliyimi uşaqlarla paylaşıram, həm də müəllim kimi məşğul olduğum müddətdə özüm də öyrənir, biliyimi yeniləyirəm. Hesab edirəm ki, bir neçə il əvvələ nisbətən indi bu sahə bir az da inkişaf edib. Olimpiadaya hazırlıq keçən müəllimlərin sayı artıb. İndi bir həftədə bir neçə müəllimlə sürətli hazırlıq keçmək və qısa müddətdə istəyinə nail olmaq mümkündür".

### Olimpiada tez və effektiv həllər öyrədir

İsmət Ağayev də tələbədir. O da olimpiadalara hazırlıq prosesində fəal iştirak edir. 695 balla Bakı Ali Neft Məktəbinə daxil olan İsmət artıq IV kurs tələbəsidir. Orta məktəb şagirdi olarkən respublika fənn olimpiadasında gümüş medal qazanıb. Sonra beynəlxalq yarışa qatılıb. Seçmə mərhələsində birinci yer tutan İsmət IX sinifdə oxuyarkən Türkiyədə keçirilən yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasına qatılmaq şansı qazanan 4 məktəblidən biri olub və gümüş medal qazanıb. Beynəlxalq yarışlarda gümüş və bürünc medallar, respublika fənn olimpiadalarında gümüş, qızıl medallar qazanaraq hətta "Birincilərin birincisi" nominasiyası üzrə də mükafatlandırılıb. O da beynəlxalq olimpiada təcrübəsinin həyatındakı rolunu çox yüksək qiymətləndirir: "Olimpiada bilikləri insana hər hansı problemi tez və effektiv şəkildə həll etməyi öyrədir. Olimpiada iştirakçısı və qalibi olanlar çıxış yolunu digərləri ilə müqayisədə daha tez tapırlar. Bu da olimpiadanın insana qazandırdığı ən qiymətli xüsusiyyətdir".

İsmət hazırlıq keçdiyi uşaqlarla bağlı daha yüksək fikirdədir: "Hələ yaşları az olduğundan elə də çox şey bilmirlər. İnanın ki, bu uşaqlar X-XI sinifdə artıq məndən çox biləcəklər. Bu uşaqların arasında istedadlı və çalışqan olanları çoxdur. Bizim X-XI sinifdə mənimsədiklərimizi onlar artıq VII sinifdən öyrənməyə başlayıblar. Dərs dediyim qrupda 7-ci sinif şagirdi olan Fidan Qarayevanın xüsusi istedadı var. Hamıdan balaca olsa da, imtahanda ən yaxşı nəticə göstərən 4-5 nəfərdən biri olub. İnanıram ki, növbəti imtahanda birinci olacaq".

### Olimpiadaçıların ən balacası

İsmət Ağayevin barəsində qürurla danışdığı kiçik qızla biz də tanış olduq. Meksikada anadan olan, VI sinfədək həmin ölkədə təhsil alan və olimpiadalara qatılaraq uğurlar qazanan Fidan Qarayeva ailəsinin Bakıya gəlişi ilə sadəcə yaşayış yerini yox, mühitini, dostlarını, hətta tədris dilini də dəyişib. Fidan Qarayeva Bakıda azərbaycanca təhsil alır. Fikrini bir az çətin ifadə etsə də, artıq Azərbaycan dilində imtahan verərək uğur qazanıb. Xətai rayonundakı 257 nömrəli tam orta məktəbdə təhsil alır. Fidan Bakıda seçim mərhələsində iştirak edib və olimpiadalara hazırlıq mərkəzində məşq keçmək hüququ qazanıb. Hazırda yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasına hazırlaşır.

Mütəxəssislər hesab edirlər ki, beynəlxalq olimpiadalarda yaş bir çox hallarda önəm daşımır. Bir də görürsən, IX sinif şagirdi XI sinif şagirdindən daha yaxşı nəticə göstərir. Bu təcrübəyə əsaslanan müəllimləri VII sinif şagirdi Fidanın da tezliklə özündən böyüklərlə yarışdan qalib çıxacağına əmindirlər.

### Xaricdən müəllimlər dəvət edilir

Yuxarı yaş qrupunda olan şagirdlərin hazırlığında daha yüksək nəticələrə nail olmaq üçün mütəmadi olaraq ayrı-ayrı ölkələrdə çalışan, olimpiadalara hazırlıq sahəsində təcrübəsi olan müəllimlər dəvət edilir. Hazırda Moskva Dövlət Universitetinin 2 müəllimi Bakıdadır.

Milana Ağayeva Moskva Dövlət Universitetinin Bakı filialında həm bakalavr, həm də magistr təhsili alıb. Hazırda həmin universitetdə aspiranttdır. Sumqayıtda 34 saylı orta məktəbi bitirən Milana Ağayeva X-XI siniflərdə oxuyarkən olimpiadalarda iştirak edib. 2012-ci ildə Qazaxıstanda keçirilən Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında bürünc medal qazanıb və bu, onun ən uğurlu beynəlxalq yarış təcrübəsi olub. 2013-cü ildən beynəlxalq olimpiadalarda elmi müşahidəçi kimi iştirak edir: "Hazırda fiziki kimyadan dərs deyirəm. Olimpiadada fiziki, üzvi, qeyri-üzvi kimyadan, analitik kimyadan və biokimyadan suallar salınır. Orta məktəb proqramında fiziki kimya, demək olar ki, yoxdur. Kimyanın bu bölməsi daha çox universitet proqramında tədris edilir. Ona görə də uşaqlarla əlavə hazırlıq keçmək mütləqdir".

Milana Ağayeva deyir ki, nəzəriyyəni uşaqlar özləri də öyrənə bilərlər, onlara məsələ işləmək, nəzəriyyədə öyrəndiklərini tətbiq etmək öyrədilməlidir. Çünki olimpiadada, demək olar ki, nəzəri suallar olmur.

Milana Ağayeva yarışlara qatılan məktəblilərimizin hazırlıq prosesində ən yaxşı köməkçilərindəndir: "Olimpiadaya hazırlıq tam fərqlidir. Tutaq ki, Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında suallarla bağlı əvvəlcədən ehtimal yürütmək mümkün olmur. Bu yarışda istənilən mövzudan sual düşə bilər. Sualların hansı ağırlıq dərəcəsində olacağını təxmin edir və uşaqları da bu istiqamətdə hazırlayırıq".

### Olimpiadaçının öyrənmə yolu

Rəşad Məmmədov Bakı Mühəndislik Universitetində Kompüter mühəndisliyi ixtisası üzrə təhsil alıb. Ali məktəbdə təhsil alarkən beynəlxalq olimpiadalara qatılıb. Rəşad hazırlıq mərkəzində uşaqları Beynəlxalq İnformatika Olimpiadasına hazırlaşdırır: "Məncə, uşaqları olimpiadaya hazırlayan şəxs özü olimpiada yolu keçən biri olmalıdır. Olimpiada məsələləri normal məsələlərdən qat-qat çətinləşdirilmiş olur. Vaxt tələb edən, günlərlə fikirləşmək, analiz etmək lazım gələn məsələlərdir. Düşünürəm ki, olimpiadada adi bir müəllimin öhdəsindən gələ bilməyəcəyi məsələlər verilir. Beynəlxalq olimpiadaya hazırlaşan şagirdlər çətin məsələləri həll etməkdə məktəblərdə dərs keçən müəllimlərdən daha üstündürlər. Nəzəri biliklərdə geri qalsalar da, məsələ həllində şagirdlərin daha sürətli və effektli nəticə qazanacaqlarına əmin ola bilərsiniz. Çünki bu şagirdlərin təcrübəsi daha çoxdur. Olimpiadaya hazırlıqda istedad rol oynayır, amma çəkilən zəhmət və təcrübə daha önəmlidir".

Rəşadın dediklərini valideynlər də təsdiq edir. Məsələn, Ülviyyə Allahverdiyevanın qızı Fizika, riyaziyyat və informatika təmayüllü liseydə oxuyur. Bu tədris ilindən sınaq imtahanlarına qatılaraq hazırlıq mərkəzində məşqlərə başlayıb. Qızının məşğələdən çıxmasını gözləyən ana onun olimpiadalara hazırlıq mərkəzinə həvəslə gəldiyindən, verilən tapşırıqlar üzərində yorulmadan çalışdığından danışır.

Xatirə Cəfərova da uşaqlarını gözləyən valideynlər arasındadır: "Qızım Mədinə Qənbərli riyaziyyatı da, riyaziyyat müəllimini də çox sevir. Uşaqlarımız Şəmsi müəllimə "Eynşteyn" deyirlər. Bilirsiniz ki, hazırlıq mərkəzində dərs proqramından fərqli proqram tətbiq edilir. Çətindir, amma uşaqlar üçün çox maraqlıdır. Uşaqlarımız çox həvəslə hazırlığa gəlirlər. Daim axtarışdadırlar".

Valideynlər olimpiadalara hazırlığın uşaqlarının gələcəyində mühüm rol oynayacağına şübhə etmirlər. Afət Babayeva VIII sinif şagirdi Nərgiz Əhmədovanın valideynidir. Deyir ki, bu vaxta qədər yaxşı təhsil axtarışında olub, bu məqsədlə daim məktəb dəyişiblər: "Bundan əvvəlki məktəb də keyfiyyətli təhsil verirdi. Ancaq Fizika, riyaziyyat və informatika təmayüllü lisey və burada hazırlıq mərkəzinin fəaliyyəti tam ürəyimizcədir. Qızım da təhsilindən, müəllimlərindən çox razıdır. Uşağımın potensialına inanıram və ona dəstək verirəm. Hazırda respublika fənn olimpiadasına hazırlaşır, bundan sonrakı uğurlarının daha böyük olacağını gözləyirəm".

### Son söz əvəzi... və ya sinerji effekti

Hazırlıq mərkəzlərində beynəlxalq olimpiadalara hazırlıq yalnız dəqiq fənlər üzrə aparılır. Olimpiadaçılar il ərzində 15-dən artıq beynəlxalq yarışa qatılırlar. Həmin olimpiadalara biletlərin alınmasını, şagirdlərin hazırlıq xərclərini Təhsil Nazirliyi qarşılayır. Şagirdlər beynəlxalq yarışlara qatılmaq üçün hər hansı ödəniş həyata keçirmirlər. Burada əsas fəlsəfə həm də olimpiadaya hazırlıq üçün sinerji effekti yaratmaqdır.

Təhsil Nazirliyinin bilavasitə təşkilatçılığı ilə Fizika, Riyaziyyat, İnformatika təmayüllü liseydə olimpiada dərsləri keçmək üçün həm ölkəmizin müxtəlif bölgələrindən müəllimlər, həm də dünyanın müxtəlif yerlərində təhsil alan, dərs deyən istedadlı həmyerlilərimizin gücü səfərbər olunur.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Hindistanda ümumxalq tətilinə 200 milyon nəfər qatılıb



Dünən Hindistanda bir sıra ümummilli həmkarlar ittifaqları və solçu hərəkatların çağırışı ilə başlamış ikigünlük tətildə 200 milyon nəfərə yaxın adam iştirak edib. Bu barədə NDTV telekanalı xəbər verir.

Etirazçılar sənayenin müxtəlif sahələrində minimal əməkhaqqının və pensiyaların artırılması, sosial şəraiti yaxşılaşdırmaq, işsiz gənclər üçün iş yerləri açmaq tələbi ilə şüarlar səsləndirmişlər. Tətil iştirakçıları mərkəzi hökuməti fəhlələrin maraqlarını müdafiə etməməkdə ittiham edirlər. Aksiyaya bəzi kəndli və fermer birlikləri də qoşulmuşdur.

Etirazçılar ölkənin bir neçə regionunda dəmir və avtomobil yollarını bağlamışlar. Qərbi Benqaliya və Kerala ştatlarında polislə toqquşmalar baş vermişdir.

Yerli KİV-in xəbərinə görə, tətil şəhər, şəhərlərarası və dəmiryolu nəqliyyatının, bank sektorunun, sığorta şirkətlərinin və telekommunikasiyaların işinə təsir göstərib. Bəzi rayonlarda məktəblər və digər təhsil müəssisələri bağlanıb. Şəhərlərdə bir çox mağaza və ofislər işləmir.

## Paris etirazçıları "sərt tədbirlər"lə hədələyir



Fransada icazəsiz etiraz aksiyalarının təşkilatçıları və iştirakçıları məsuliyyətə cəlb olunacaqlar. Bu bəyanatla ölkənin Baş naziri Eduard Filipp çıxış etmişdir.

Hökumətin başçısı TF1 telekanalının efirində elan etmişdir ki, hazırlanan yeni qanun layihəsinə əsasən, "Sarı jiletlər" hərəkatında iştirak edən şəxslər "sərt şəkildə cəzalandırılacaqlar". Filippin dediyinə görə, dövlət, bələdiyyə, yaxud şəxsi mülkiyyətə zərər vurmaq yolverilməzdir. Baş nazir qeyd etmişdir ki, ötən il noyabrın 17-də ölkədə "Sarı jiletlər"in aksiyaları başlayandan bəri 5600 nəfərdən çox adam saxlanmış, 1000 nəfərə yaxın etirazçı müxtəlif müddətlərə həbs cəzasına məhkum edilmişdir.

Hökumətin başçısı bildirmişdir ki, gələn şənbə günü keçiriləcək aksiyalar zamanı ölkədə təhlükəsizliyin təmin olunmasına 80 minədək asayiş keşikçisi cəlb ediləcək.

## ABŞ Aİ-nin Vaşinqtondakı təmsilçiliyinin statusunu aşağı salıb



Donald Tramp administrasiyası Brüsseli rəsmən xəbərdar etmədən Avropa İttifaqının ABŞ-dakı təmsilçiliyinin diplomatik statusunu aşağı salmışdır. Müvafiq məlumatı Aİ-nin rəsmi nümayəndəsi təsdiq etmişdir. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Güman ki, missiyanın səviyyəsinin üzvdövlətin diplomatik statusundan beynəlxalq təşkilat səviyyəsinədək endirilməsi ötən ilin axırlarında baş vermişdir. Diplomatların fikrincə, bu qərar 2018-ci il oktyabrın axırları - noyabrın əvvəllərində qəbul olunmuşdur. O vaxt təmsilçiliyin əməkdaşları diqqət yetirmişlər ki, missiyanın başçısı Devid O'Sallivan Vaşinqtonda keçirilmiş bir sıra tədbirlərə dəvət almamışdır. Məsələn, onlar ötən ilin dekabrında ABŞ-ın 41-ci Prezidenti Corc Buşun (ata) dəfn mərasiminin təşkilatçılarına müraciət etdikdən sonra missiyanın statusunun faktiki olaraq dəyişdirilməsi barədə məlumat almışlar.

ABŞ Dövlət Departamenti Aİ-nin diplomatik əməkdaşlarının sorğusuna belə bir cavab vermişdir ki, "onları məlumatlandırmaq yaddan çıxmışdır". Xarici siyasət idarəsi izah etmişdir ki, protokol xidmətinin rəhbəri Aİ diplomatlarını dəvət etməməyi məqsədəuyğun saydığına görə müvafiq qərar qəbul olunmuşdur.

## "Taliban" və ABŞ-ın nümayəndələri Dohada görüşəcəklər

Bu gün və sabah Qətərin paytaxtı Dohada "Taliban" və ABŞ nümayəndələri dinc danışıqları müzakirə edəcəklər. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Bundan əvvəl Əfqanıstan hökuməti bildirmişdi ki, bu ay Səudiyyə Ərəbistanının Ciddə şəhərində tənzimlənmə üzrə danışıqların növbəti mərhələsinə nümayəndə heyəti göndərməyə hazırdır. Taliblər hökumətin bu təklifinə rədd cavabı vermişdilər. Lakin hərəkatın rəhbər şurasının üzvü "Röyter" agentliyinə bildirmişdi ki, taliblərin nümayəndələri cari ilin yanvar ayında Səudiyyə Ərəbistanında ABŞ-ın rəsmi şəxsləri ilə görüşəcək və Əbu-Dabidə yarımçıq qalmış danışıqları davam etdirəcək.

## Almaniya və Avstriyada qar 9 nəfərin həyatına son qoydu



Avstriya və Almaniyada azı 9 nəfər güclü qar yağışları və onların törətdiyi uçqunlar nəticəsində həlak olmuşdur. Ölənlərin əksəriyyəti xizəkçilər və turistlərdir.

"Bild" qəzetinin xəbərinə görə, uçqun təhlükəsi üzündən Avstriyada Hohkar qış kurortu bağlanmış, Bavariya Alplarındakı Misbah rayonunda isə fövqəladə vəziyyət rejimi elan edilmişdir.

Proqnozlara əsasən, qar yağışı hələ bir həftə davam edəcək, qar örtüyünün qalınlığı 2 metrə çatacaq. Bu isə binaların uçmasına və yeni ölüm hallarına gətirib çıxara bilər.

Hohkar hakimiyyət orqanları bildirir ki, indiyədək bu cür qar yağışı qeydə alınmamışdır. 20 il əvvəl Qaltbredə baş vermiş fəlakət təkrarlana bilər. O vaxt qar uçqunları nəticəsində bir kommunanın 30-dan çox sakini həlak olmuşdur.

## Gürcüstanda qrip virusu ilə əlaqədar məktəblilərin qış tətilinin müddəti uzadılacaq

Tbilisidəki "Privat klinika" uşaq xəstəxanasının təcili tibbi yardım şöbəsinə qrip virusu və oxşar xəstəliklərə yoluxma halları ilə müraciət edənlərin sayı iki dəfədən çox artıb. Bu barədə "Birinci kanal" televiziyasına xəstəxananın rəhbəri Yekaterina Çxartişvili məlumat verib. Onun sözlərinə görə, klinika xəstələrlə dolub və həkimlər fövqəladə rejimdə işləyirlər. Bəzi xəstələr ilkin tibbi yardım göstərildikdən sonra evlərinə göndərilirlər. Amma klinikaya müraciət edən xəstələrin 4-5 faizi xəstəxanada qalıb.

Məlumat üçün qeyd edək ki, Gürcüstanda qrip virusu yayılmaqda davam edir. Virusa yoluxanların böyük əksəriyyətində donuz qripi aşkarlanıb. Yanvarın 8-də 22 yaşlı qadın da qrip virusundan dünyasını dəyişib. Bununla da donuz qripindən ölənlərin sayı 10 nəfərə çatıb. Tbilisidəki 5 xəstəxana yanvarın 8-dən fövqəladə rejimdə işləyir. Səhiyyə və Təhsil nazirlikləri məktəblilərin qış tətilinin müddətinin uzadılması barədə təkliflər hazırlayır. Mütəxəssislərin fikrincə, məktəblilərin qış tətilinin müddəti qeyri-müəyyən müddətədək uzadılacaq.


## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin ofis texnikasının satın alınması məqsədilə keçirdiyi kotirovka sorğusu başa çatıb.

Tender komissiyasının 24.12.2018-ci il tarixli qərarı ilə "Best-Comp Group" MMC kotirovka sorğusunun qalibi seçilib.

Qalib şirkətlə 07.01.2019-cu il tarixində satınalma müqaviləsi imzalanıb.

***Tender komissiyası***

# Dezinfeksiya, dezinseksiya, deratizasiya işlərinin satın alınması ilə əlaqədar "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Dezinfeksiya, dezinseksiya, deratizasiya işlərinin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464 41 11).

**İştirak haqqı 400 manat.**

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat.*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 fevral 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Ekoloji monitorinq və laborator analizlərinin aparılması işlərinin satın alınması ilə əlaqədar "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Ekoloji monitorinq və laborator analizlərinin aparılması işlərinin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464 41 11).

**İştirak haqqı 300 manat.**

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat;*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 fevral 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması ilə əlaqədar "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464 41 11).

**İştirak haqqı 400 manat.**

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat;*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 fevral 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

**Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Sumqayıt Regional Reklam İdarəsi** tərəfindən nəqliyyat vasitələrinin satın alınmasına dair 25 oktyabr 2018-ci il tarixdə elan olunmuş açıq tenderin qalibləri aşağıdakı kimi müəyyən olunmuşdur:

**LOT 1** üzrə (3 ədəd sedan tipli nəqliyyat vasitəsi) tenderdə qalib elan olunmuş "Toyota Abşeron Center" MMC ilə 04.01.2019-cu il tarixli satınalma müqaviləsi,

**LOT 2** üzrə (10 ədəd minivan tipli nəqliyyat vasitəsi) tenderdə qalib elan olunmuş "Autouniversal" MMC ilə 04.01.2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

***Palatanın 2018-ci ilin yekunlarına görə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun illik maliyyə hesabatlarının audit olunması xidmətinin satın alınması məqsədi ilə***

## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr., 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov. Telefon: +99412 493-50-58/285; faks:+99412498-12-14) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 11 yanvar 2019-cu il saat 17:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin rəisi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Vaqif və Ceyhun Şadlinskilərə əzizləri
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin deputatı Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rauf Vəliyev
**MAHMUD QULİYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi
**MAHMUD QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin komissiya sədri, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Tibb Universiteti Anatomiya və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi
**ZAHİR MƏMMƏD OĞLU ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şöhrət Qasımov ailəsi ilə birlikdə professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Eldar Cəbrayılov və Rəhman Salmanlı professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Tibb Universiteti Anatomiya və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin deputatı Ağalar Vəliyevə və yaxınlarına əzizləri
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tahir Budaqov Azərbaycan Tibb Universiteti Anatomiya və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universiteti Anatomiya və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın müdiri, professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Oğuz rayonundan Xalid Babayev ailəsi ilə birlikdə yaxın dostu Məzahir Əliyevə qardaşı
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov Azərbaycan Tibb Universiteti Anatomiya və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə və Azərbaycan Texniki Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri Akif Cahangirova əzizləri
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azneftkimyamaş" ASC-nin İdarə Heyətinin sədri Əli Qaraxanov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7731
Sifariş 66
Qiyməti 40 qəpik